www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 iyun 2025-ci il Çərşənbə axşamı № 107 (8717) Qiymәti 60 qəpik

**Xəbər**

## SOS! Yayda bu qidaları yeməyin, zəhərləyir!

yazısı səh.11-də

**Gündəm**

### Paşinyana son "ev tapşırığı" - İrəvan bu şansı da qaçırsa...



Ərdoğan erməni baş nazirə Bakı ilə Ankaranın "yol xəritəsini" təqdim etdi

yazısı səh.7-də

### Separatçıların son "patronu" - buna da getsələr...

yazısı səh.5-də

### İran televiziyasında Azərbaycana hücum çağırışı

yazısı səh.4-də

### ABŞ Bakıdakı tədbiri təxirə saldı - səbəb

yazısı səh.5-də

### Kremldən İrəvana şok təhdid: ya biz, ya da...

yazısı səh.9-da

### Parlamentdə muxtariyyətin ləğvi söhbəti - iki mövqe

yazısı səh.4-də

### Xamneyinin varisi dəqiqləşir - rejimin taleyi isə...

yazısı səh.10-da

### Çinə "qanad açan" toyuqlarımız - Azərbaycanın qazancı

yazısı səh.14-də

### Quru sərhədlər bu tarixədək bağlı qalacaq

yazısı səh.2-də

### Tehranın Bakıya qarşı ən böyük səhvi

yazısı səh.12-də

### Bakıya tramvay gələcəkmi - vaxt da daralır, yollar da...

yazısı səh.15-də

### QMİ Məhərrəm ayı ilə bağlı fətva verdi

yazısı səh.2-də

# İRANI SÜLHƏ MƏCBURETMƏ ƏMƏLİYYATI, YOXSA... - KRİTİK HƏFTƏ

ABŞ-ın zərbələri Tehranın nüvə silahı proqramını ciddi şəkildə geri atdı; müharibə tezliklə bitəcəkmi - rəy

yazısı səh.8-də



## Azərbaycanda yeni həbslər: doqquz oldular... - sırada hansı icra başçısıdır?

Rayon rəhbərləri "gözü çıxmış qardaş"ın taleyindən niyə nəticə çıxarmırlar; İH-lərin ləğvinin zamanı çatır - hüquqşünasdan şərh

yazısı səh.3-də



Novella Cəfəroğlu

### Azyaşlının molla ilə qaçmasına hüquq müdafiəçisindən sərt reaksiya

yazısı səh.13-də



### Ziya Məmmədovun oğlunun şirkəti ləğv edilir

yazısı səh.3-də



### Putindən postsovet ölkələrinə hədə - Bakıdan reaksiya

yazısı səh.9-da



# Prezident Yevlaxda və Goranboyda bir sıra obyektlərin açılışını etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanış olub. Musavat.com xəbər verir ki, prezident Ümummilli lider Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.**



Prezident Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışında iştirak edib. Dövlət başçısı həmçinin Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanış olub.

Prezident “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq “Yevlax” qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin açılışında iştirak edib.

Bundan başqa, Prezident Yevlaxda “Azərişıq” ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Goranboy rayonunda “Konstralab Industries” QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında da iştirak edib.

# Daha bir tiktoker ev dustaqlığına buraxıldı

**“TikTok əməliyyatı” zamanı saxlanılan daha bir nəfər ev dustaqlığına buraxılıb. APA xəbər verir ki, tiktoker Rövşən Təhməzovun barəsində olan həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatətə baxılıb. Nərimanov Rayon Məhkəməsi vəsatətin təmin edilməsi ilə bağlı qərar qəbul edib.**

Rövşən Təhməzov barəsində olan həbs-qətimkan tədbiri ev dustaqlığı qətimkan tədbiri ilə əvəzlənib. Qeyd edək ki, ötən ilin dekabr ayında DİN-in Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsində tiktoker, aparıcı Azər Zahid və digər şəxslərə qarşı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma, internetdə onlayn qumar oyunları təşkil etmə maddələri ilə cinayət işi başlanıb.

Onlar Cinayət Məcəlləsinin 193-1.3.2-ci (mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma) 244-1.2.2-ci (qumar oyunu təşkil etmə), 244-1.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə təqsirli bilinirlər.

Cinayət işi üzrə həmin əməllərdə təqsirli olan Azər Zahid və onun köməkçisi Rövşən Təhməzov, Emin və Rəşad Abdullayev qardaşları həbs edilib. Ötən ay Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə Emin Abdullayev ev dustaqlığına buraxılıb.

# Quru sərhədlər bu tarixədək bağlı qalacaq - rəsmi




**Koronavirus (COVİD-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2025-ci il 1 oktyabr saat 06:00-dək uzadılıb. Nazirlər Kabineti bu barədə qərar verib.**

# “Toplum TV” işi üzrə ittiham aktı elan edildi

**“Toplum TV” işi üzrə təqsirləndirilən Ələsgər Məmmədli, Akif Qurbanov, Ramil Babayev, Əli Zeynalov, Müşfiq Cabbarov, Fərid İsmayılov, İlkin Əmrahov, Ruslan İzzətli və Elmir Abbasovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Modern.az xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrlik etdiyi prosesdə dövlət ittihamçısı təqsirləndirilən Elmir Abbasov, Fərid İsmayılov və İlkin Əmrahova aid hissədə ittiham aktını elan edib.

Ötən iclasda isə Ələsgər Məmmədli, Akif Qurbanov, Ramil Babayev, Əli Zeynalov, Müşfiq Cabbarov və Ruslan İzzətliyə aid hissədə ittiham aktı elan olunmuşdu.

İclasda dövlət ittihamçısı cinayət işi üzrə ittiham aktını tam elan edərək başa çatdırıb. Daha sonra təqsirləndirilən şəxslərin hər biri ittihama münasibət bildirib və özlərini təqsirli bilməyiblər. Məhkəmə prosesi iyunun 30-da davam edəcək.

Xatırladaq ki, 2024-cü il martın 6-da sosial şəbəkələrdə “Toplum TV”nin ofisində axtarış aparılması və saxlanılanların olması ilə bağlı xəbərlər yayılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, paytaxtın Nərimanov rayonu, Y.V.Çəmənzəminli küçəsi 98 B ünvanında yerləşən ofisdə və əlavə digər ünvanlarda bir qrup şəxsin fəaliyyəti ilə bağlı daxil olan məlumat əsasında polis əməkdaşları əməliyyat-axtarış tədbirləri keçiriblər.

İstintaq araşdırması zamanı “Toplum TV”nin təsisçisi Ələsgər Məmmədli, redaktor Müşfiq Cabbarov, “Demokratik Təşəbbüslər İnstitutu”nun rəhbəri Akif Qurbanov, həmin institutun əməkdaşı Əli Zeynalov, “III Respublika” Platformasının qurucu heyət üzvü Ruslan İzzətli, Ramil Babayev, İlkin Əmrahov, Fərid İsmayılov və Elmir Abbasov məsuliyyətə cəlb olunublar.

# QMİ Məhərrəm ayı ilə bağlı fətva verdi




**Məhərrəm ayı ilə bağlı fətva verilib. Bu barədə APA-ya QMİ-dən bildirilib. Fətvada deyilir ki, Şamaxı Astrofizika Rəsədxanasının rəsmi hesablamalarına görə Hicri-qəməri təqvimi ilə 1446-cı il başa çatır, yeni 1447-ci ilin başlanğıcının - Məhərrəm ayının 1-nin Miladi təqvimlə 2025-ci il iyun ayının 26-na təsadüf etməsi gözlənilir.**

“Ümidvarıq ki, inşaAllah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, qan bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında Allah rizası üçün İmam Hüseyn (ə) və əziz şəhidlərin xatirinə ehsan niyyəti ilə qan verəcək, minlərlə xəstə insana, irsi xəstəliklərdən əziyyət çəkən uşaqların şəfa tapmasına yardımçı olacaqlar. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdiriləcək”, - qeyd olunub.

Qazılar Şurası dindarlara xatırladır ki, Məhərrəm və Səfər aylarında 60 gün ərzində keçirilən təziyə mərasimləri, xüsusilə Tasua və Aşura əzadarlığı zamanı müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq, qurşağadək soyunaraq sinə vurmaq və s. dinimizə görə qəbuledilməzdir.

**QMİ Qazılar Şurası onu da diqqətə çatdırıb ki, “Dini etiqad azadlığı haqqında” Qanunun müddəalarına riayət edərək dini mərasimlər məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirilməlidir:** “Azərbaycan qanunlarına əsasən, təziyə mərasimləri zamanı milli-mənəvi dəyərlərimizə və dövlətçilik ənənələrimizə xələl gətirən şüarların səsləndirilməsi, dövlət simvollarına uyğun olmayan atributların istifadəsi, küçə yürüşləri və ictimai asayişin pozulması yolverilməzdir. Xüsusilə qeyd etmək istərdik ki, ölkəmizin suverenliyi, dövlətçiliyimizin yenilməz nüfuzu əleyhinə son dönəmlərdə güclənən erməni revanşist təbliğatına qarşı Azərbaycan din xadimləri tərəfindən qətiyyətli və davamlı şəkildə Vətən sevgisini, milli dəyərlərə sədaqəti, şərəf və ləyaqəti ehtiva edən çağırışlar edilməli, xütbələr oxunmalıdır. Qeyd olunan tövsiyələrin bölgələrdəki din xadimlərinin dindarlara çatdırması vacibdir. Qazılar və səlahiyyətli nümayəndələr öz bölgə məscidlərində görülən tədbirlər barədə tam hesabatlarını Qafqaz Müsəlmanları İdarəsinə təqdim etməlidirlər.

Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 Yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur. Uca Allah xalqımızı, dövlətimizi hifz etsin, dövlət rəhbərimizin Azərbaycan naminə fəaliyyətinə daima rəvac versin!"

# Alatavada ev yıxan ekskavator sürücüsü azadlığa buraxıldı

**Alatavada qanunsuz söküntü işləri ilə bağlı həbs edilən ekskavator sürücüsü barəsində qərar verilib. APA xəbər verir ki, söküntü ilə bağlı saxlanılan Qala Eynullayev azadlığa buraxılıb.**

Məlumata görə, bu, zərərçəkən tərəflə şirkət arasında razılaşma əldə olunandan sonra baş verib.

Xatırladaq ki, ötən ay Xətai Rayon Məhkəməsinin qərarına əsasən, “Melissa Group” tikinti şirkətinin rəhbəri Qalib Məmmədov da ev dustaqlığına buraxılıb.

Qeyd edək ki, bu il martın 27-də Bakı şəhəri, Yasamal rayonu, Alatava ərazisində qanunsuz söküntü işləri aparılıb.

Fakta görə Cinayət Məcəlləsinin müvafiq maddəsilə cinayət işi açılıb. Daha sonra hadisə ilə bağlı “Melissa Group” tikinti şirkətinin rəhbəri Qalib Məmmədov, söküntü işləri aparan ekskavator Eynullayev Qala Seymur oğlu saxlanılıb.

Qalib Məmmədov və Qala Eynullayev barəsində martın 29-da Xətai Rayon Məhkəməsində həbs-qətimkan tədbiri seçilib.

Qalib Məmmədova Cinayət Məcəlləsinin 32.3-cü (Cinayətdə iştirakçılıq, cinayətin törədilməsini təşkil etmə və ya həmin cinayətin törədilməsinə rəhbərlik etmə, eləcə də mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratma və ya bunlara rəhbərlik etmə), 186.2.2-ci (Əmlakı qəsdən məhv etmə və ya zədələmə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham irəli sürülüb.

# Leysan yağış, dolu yağacaq - bu günün havası

**İyunun 24-də Azərbaycanda havanın dəyişkən buludlu olacağı, bəzi yerlərdə yağış yağacağı gözlənilir. Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.**

Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 23-dən 24-nə keçən gecə və səhər yarımadanın bəzi yerlərində zəif duman, az çiskin olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 19-21° isti, gündüz 24-26° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 % olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-21° isti, gündüz 28-33° isti, dağlarda gecə 7-12° isti, gündüz 13-18° isti olacaq.

Yeni MÜSAVAT
N 107 (8717) 24 iyun 2025



# Doqquz oldular... - növbədə hansı icra başçısıdır?

## Rayon rəhbərləri "gözü çıxmış qardaş"dan nəticə çıxarmırlar; İH-lərin ləğvinin tam vaxtıdırmı - hüquqşünasdan izah

**Xəbər verdiyimiz kimi, iyunun 20-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Qax Rayon İcra Hakimiyyətində keçirdiyi əməliyyat nəticəsində saxlanılan icra başçısı Musa Şəkiliyev barəsində həbs-qətimkan tədbirin seçilməsi üçün məhkəməyə təqdimat daxil olub. Səbayel Rayon Məhkəməsində keçirilən prosesdə istintaq orqanının təqdimatına baxılıb.**

Musa Şəkiliyev barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. O, qulluq mövqeyindən istifadə etməklə xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə cinayətində ittiham olunur.

Prezident İlham Əliyevin iyunun 21-də imzaladığı sərəncama əsasən, Musa Şaban oğlu Şəkiliyev Qax Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Hazırda həbsdə xeyli icra başçısı var. Lakin Şəkiliyevin nümunəsi göstərdi ki, hələ də məmurlar keçmiş həmkarlarının istintaqa cəlb olunmasından nəticə çıxarmayıblar. Hazırda Qaxın sabiq başçısı ilə birlikdə 9 başçı həbs olunub. Onlardan Ağstafanın keçmiş başçısı Nizaməddin Quliyev həbsdə vəfat edib, Kürdəmirin və Yevlağın sabiq İH rəhbərləri artıq azadlığa çıxıb. Neftçala, İmişli, Biləsuvar, Cəlilabad, Şəmkirin keçmiş başçıları cəzasını çəkməkdədir.

Neftçala İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev bir vaxtlar rayonun "sükanı arxasında" idi. Amma DTX onun iş otağından nəinki külli miqdarda dollar və manat aşkarladı, hətta qızıl-zinət əşyaları, saxta möhürlər də tapdı. İsmayıl Vəliyevin kənd təsərrüfatı, sosial yardımlar, dövlət sifarişi ilə çəkilən yollar vasitəsilə milyonları necə ələ keçirməsi məhkəmə materiallarında açıq-aşkar göstərildi.

Kürdəmirin sabiq icra başçısı Ceyhun Cəfərovun işi isə daha "yaradıcı" idi. İddia olunurdu ki, o, sırf bir şəxsin icra hakimiyyətinin ümumi şöbə müdiri təyinatı üçün 50 min manat tələb edib. Bu pulun böyük hissəsi onun yaxın adamına ötürülüb.

Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədovun işi bəlkə də son illərin ən səs-küylü korrupsiya qalmaqalı idi. Onun iş otağından çıxan bank kartları, möhürlər və saxta sənədlər hər kəsi şoka salmışdı. İttihama görə Alimpaşa Məmmədov sosial yardımlar üçün ayrılmış pulları 30-dan artıq "ölü can" adlarına köçürdür, bu kartları isə özü idarə edirmiş. Ümumi məbləğin 2 milyon manatdan çox olduğu bildirilirdi.

İmişli İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyev də "sosial yardım" layihələri ilə milyonlar qazananlardan idi. Ən dəhşətlisi isə o idi ki, onun evindən pandemiya dövründə ehtiyaclı ailələr üçün nəzərdə tutulan ərzaq paketləri tapıldı. Heç kəs bu rüsvayçılığı uzun illər unutmayacaq.

Biləsuvarın keçmiş başçısı Mahir Quliyevin işi isə ailə biznesinə çevrilmişdi. Oğlunun adına qurulan MMC-lər dövlət layihələrinin tenderlərini udur, pullar ailə büdcəsinə axırdı. İstintaq belə tenderlərin dəyərinin milyonlarla manat olduğunu sübuta yetirdi.

Ağstafanın sabiq başçısı Nizaməddin Quliyev bu zəncirin ən faciəvi siması oldu. İttihamlar fərqli deyildi. Nizaməddin Quliyev rüşvət, mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə...

Lakin o, həbsdə ikən dünyasını dəyişdi. Onun ölümü bu "icra qalmaqalı"nın ən qaranlıq səhifələrindən biri kimi yadda qaldı.

Yevlağın sabiq başçısı Qoca Səmədov və Cəlilabadın sabiq başçısı Namiq Zeynalov da eyni "sxem"lə işləmişdilər. Dövlət tenderləri, süni qiymət şişirtmələri, rüşvət... Onlar sonradan azadlığa buraxılsalar da, cəmiyyət bu adları "qara siyahı"dan hələ uzun müddət silməyəcək.

Bəs niyə icra hakimləri "gözü çıxmış qardaş"dan nəticə çıxarmır? Bəlkə yerli icraedici orqanların ləğvinin tam vaxtıdır? Onsuz da icra hakimiyyətlərinin səlahiyyətlərinin çoxu əlindən alınıb. Musa Şəkiliyev niyə belə arxayın idi? O, özünü toxunulmaz sayırdısa, görəsən, bunun səbəbi illərdir hakimiyyət dəhlizlərində xüsusi çəkisi olan xalası oğlu Meliorasiya və Su Təsərrüfatı ASC-nin keçmiş sədri Əhməd Əhmədzadə idimi?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, sovet dövründən qalma bu idarəetmə modelinin resursları tükənib:** "Onların səlahiyyətləri də, məsuliyyəti də kağız üzərindədir. Real təsir gücü yoxdur. Ona görə də bu sistem korrupsiyaya açıqdır. İcra hakimiyyətləri ləğv olunmalı, onların funksiyaları bələdiyyələrə və regional mərkəzlərə verilməlidir. Bu həm şəffaflığı, həm də xalqın yerli idarəetmədə rolunu artıracaq. Əks halda, Musa Şəkiliyev sonuncu həbs olunan icra başçısı olmayacaq.

**Natiq Ələsgərov deyib ki, icra başçılarının həbslərdən nəticə çıxaracağına az ümid var:** "Bundan öncə həbs olunan icra hakimləri də, bu gün Musa Şəkiliyev də istintaqın sübutları qarşısında aciz qalıb. Onun dayaq kimi arxalandığı şəxslər, o cümlədən keçmiş məmur qohumu belə vəziyyəti dəyişə bilməz. Çünki artıq icra başçılarının "toxunulmaz" sayıldığı dövr başa çatıb. Kim olursa-olsun, sübut varsa, cəza qaçılmazdır. Keçmişdə belə hallar olurdu ki, yüksək ranqlı qohumlar prosesə təsir edir, işləri yumşaldırdı. Amma son 4-5 ildə bu mexanizm tam çökdü. İmişlidən Şəmkirə qədər bütün başçılar üçün "xilasedici qüvvə" olmadı, Musa Şəkiliyev də istisna olmayacaq. Məsələnin ən pis tərəfi odur ki, hazırda vəzifədə olan başçılar Musa Şəkiliyevin və ondan öncə qandallanan başçıların aqibətindən nəticə çıxarmırlar. Ən yaxşı halda bir müddət qanunsuz yığımlardan, korrupsiyadan əl çəkirlər, bir müddət sonra isə baş verənləri unudurlar".

**Natiq Ələsgərov deyib ki, Musa Şəkiliyevin azadlığa çıxması onun istintaqla müəyyən olunmuş ziyanı könüllü ödəməsi, əməllərini etiraf etməsindən asılı olacaq:** "Yalnız bu halda cəza müddətində yüngülləşmə ola bilər. Amma tam xilas yolu yoxdur. Bu işdə heç kim onun dadına çata, vəziyyəti dəyişə bilməz. Bu həbs və əvvəlki həbslər göstərdi ki, daha "arxalı olmaq" dövrü bitib. DTX-nin bu tip əməliyyatlarında əsas sübutlar toplanır, video, audio materiallar olur. Ona görə də heç bir yüksək vəzifəli qohum onu xilas edə bilməz. Dövlət bu məsələlərdə artıq siyasi iradə nümayiş etdirir. Görürük ki, bu günə qədər neçə başçı müxtəlif qohumluq əlaqələrinə baxmayaraq, həbsdədir və ağır cəzalar alıblar. Musa Şəkiliyev də istisna olmayacaq. İstintaqda əməllərini etiraf edərsə və dövlətə dəymiş ziyanı könüllü ödəyərsə, bu onun cəza müddətinə təsir edə bilər. Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə) maddəsinə görə dəymiş ziyanın ödənilməsi cəzanın yüngülləşdirilməsi üçün əsas ola bilər. Amma xilas olmaq şansı real görünmür".

❑ Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"

# Ziya Məmmədovun oğlunun şirkəti ləğv edilir



**"Qarant Beton" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) ləğv edilir.**

"Teleqraf" xəbər verir ki, şirkətin nizamnamə kapitalı 10 manatdır və qanuni təmsilçisi Zeynalov Sənan Miryusif oğludur. Şirkətin borcu yoxdur, lakin 2021-ci il üzrə Vergi Məcəlləsinə uyğun olaraq vergi hesabatını vaxtında təqdim etmədiyinə görə 3 hal üzrə ümumilikdə 120.000 manat maliyyə sanksiyası tətbiq edilib. Şirkət aktiv vergi ödəyicisidir.

Qeyd edək ki, "Qarant Beton MMC" (və ya "Qarant Sement Zavodu") "Qarant İnşaat Sənaye" MMC-nin və ya "Garant Holdinq" strukturuna daxil olub. Şirkətin təsisçisi Anar Məmmədovdur.

"Bakı Beynəlxalq Hava Limanı", "Flame Towers", "Füzuli Beynəlxalq Hava Limanı", "28 Mall" Ticarət Mərkəzi, "Park Bulvar" Ticarət Mərkəzi, "Azərtexnolayn", "Azgranata" və "Coca-Cola"nın anbarları, "Azercell"in şəbəkə obyektləri, tibbi obyektlər və sosial İnfrastruktur layihələrində bu şirkət subpodratçı kimi iştirak edib.

Xatırladaq ki, 2017-ci ildə "PAŞA Bank" ASC-yə "Garant İnşaat Sənaye" MMC-yə (əvvəlki "Azbentonit" sement və tikinti qatqıları zavodu), "Garant Holding" MMC-yə, "Azpod" MMC-yə və Anar Məmmədovun özünə qarşı qarşı iddia qaldırmışdı. Söhbət 1 milyon 141 min 203 manat 17 qəpikdən gedirdi. Bu, bankdan götürülən kredit, kredit faizləri və hesablanmış cərimənin toplam məbləğidir. Bank məhkəmədən borcun ipoteka predmetinə yönəldilməsini də tələb edirdi.

# Bir neçə şəxsə etibarnamə verənlərin diqqətinə!




**Avtomobil sahibinin bir neçə nəfərə sürücülük etibarnaməsi verməsinə tez-tez rast gəlirik. Əslində notarial qaydada qısa bir proses olan, ilk baxışdan sadə görünən etibarnamə verilməsi maşın sahibinin başını sonradan ağrıda bilər.**

Etibarnamə necə, hansı qaydalarda verilir?

Etibarnaməni eyni anda bir neçə nəfərin adına yazdırmaq mümkündür. Hər bir şəxsin məlumatları və səlahiyyətləri etibarnamədə ayrıca göstərilməlidir. Etibarnamədə nəqliyyat vasitəsini idarə etmək, satmaq, sığorta etdirmək kimi səlahiyyətlərin açıq şəkildə yazılması vacibdir. Həmçinin etibarnamənin müddəti də göstərilməlidir.

Bəs eyni anda bir neçə adama etibarnamə vermək risklidirmi?

**Nəqliyyat eksperti Eldəniz Cəfərov**un Bizim.Media-ya verdiyi məlumata görə, sırf avtomobili sürmək üçün verilmiş etibarnamənin heç bir təhlükəsi yoxdur.

"Sadəcə, qayda pozuntusu varsa, bu zaman həmin o cərimə sonuncu dəfə etibarnamə kimə verilibsə, onun ünvanına gələcək".

Mütəxəssis deyir ki, maşının sahibi etibarnaməni qarşı tərəfə xəbər vermədən də ləğv etdirə bilər.

"İstənilən vaxt heç bir səbəb gətirmədən etibarnaməni xəbərsiz ləğv etdirər. Yəni etibarnamənin hər an qüvvədən düşmə təhlükəsi var. Belə olduqda etibarnaməyə xitam verilir və müvafiq olaraq avtomobili almış şəxsin hüquqları da itirilir".

Həmçinin avtomobili etibarnamə ilə satmış şəxs vəfat etdikdə, onun verdiyi etibarnamə öz qüvvəsini itirmiş olur. Belə olan halda, avtomobili almış şəxs məcburdur ki, avtomobilin vərəsələrdən birinin adına rəsmiləşdirilməsini gözləsin və yalnız bundan sonra həmin vərəsə tərəfindən ona etibarnamə verilməsinə nail olsun. Amma ola bilər ki, varis də etibarnamə verməkdən imtina etsin.

Bundan başqa, etibarnamədə avtomobilin satış səlahiyyəti də verilibsə, həmin şəxs avtomobili xəbərsiz sata bilər. Əslində qanunla bu icazəni sahibkar özü ona verib. Xəbər verib-verməmək qarşı tərəfin əxlaq və etikasına qalıb. Ona görə də sonradan avtomobilin geri alınması çox çətin və ya mümkün olmaya bilər.

Etibarnamə o qədər də etibarlı sənəd deyil. Ona görə də ekspertlər tövsiyə edirlər ki, etibarnaməni yad adama verdikdə və ya aldıqda ehtiyatlı olmaq lazımdır. Hərçənd illərlə tanıdığın da gözlənilməz "U dönüşü" edə və adamı pis vəziyyətdə qoya bilər, ona görə də tam güvənilir şəxslərə etibarnamə vermək və almaq lazımdır. Hər ehtimala qarşı, müddəti də az qoymaq lazımdır ki, fikir dolu narahat gecələrin də ömrü qısa olsun. Göründüyü kimi, etibarnamə o qədər də etibarlı sənəd deyil.

# Parlamentdə Naxçıvan söhbəti - muxtariyyəti zəruri və istisna edən şərtlər

**Azərbaycan parlamentində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına təklif olunan dəyişikliklər ətrafında müzakirələr yeni siyasi və hüquqi perspektivlər doğurub. Milli Məclisin son iclasında təqdim olunan "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" qanun layihəsi yalnız texniki yeniliklərlə kifayətlənməyib, həm də regionun muxtariyyət statusu ilə bağlı fundamental sualları gündəmə gətirib.**





## Qulamhüseyn Əlibəyli: "İndidən status məsələsinin müzakirəsi uğurlu variant deyil"
## Zaur Məmmədov: ""Muxtar respublika" ifadəsinin "vilayət"lə əvəzlənməsi gözlənilir"

Müzakirələr zamanı deputatlar xüsusilə konstitusiyanın preambulasından Moskva və Qars müqavilələrinə istinadın çıxarılmasını müsbət hal kimi qiymətləndirməklə yanaşı, Naxçıvanın muxtariyyət statusunun aktual olub-olmadığını da müzakirə ediblər. Deputat Qüdrət Həsənquliyev bildirib ki, Naxçıvanın muxtariyyət statusu ilə bağlı geniş müzakirələrə başlanmalıdır. Deputat Elman Nəsirov isə qeyd edib ki, muxtariyyətlə bağlı məsələ bu layihənin predmeti deyil.

Parlament sədrinin müavini Ziyafət Əsgərov bu dəyişikliklərə çox böyük tarixi zərurət olduğunu vurğulayıb. O əlavə edib ki, Azərbaycan Konstitusiyasında olduğu kimi, Naxçıvanın Konstitusiyasında da hakimiyyətin bölgüsü prinsipi var.

Z.Əsgərov bildirib ki, Qüdrət Həsənquliyev həmişə Naxçıvanın muxtariyyət statusunun ləğvini dəstəkləyib: "Mən isə ləğv olunmamasını müdafiə etmişəm".

Qeyd edək ki, bundan sonra Naxçıvanda icra başçılarını Prezident təyin edəcək. Həmçinin dövlət başçısının icazəsi olmadan qurum yaradıla bilməz. Beləliklə, Naxçıvanda yeni dönəm başlanır.

Bu dəyişikliklər muxtar bölgə üçün nə vəd edir? Naxçıvanın muxtar statusu hansı halda ləğv oluna bilər?

**Hüquqşünas Qulamhüseyn Əlibəyli** "Yeni Müsavat"a deyib ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına təklif olunan dəyişikliklər Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən hazırlanır, qəbul olunur, daha sonra Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiqlənir: "Ondan sonra Prezident hər iki təsdiqi imzalayır və bundan sonra dəyişikliklər qüvvəyə minmiş hesab olunur. Bütövlükdə təklif olunan dəyişikliklər çoxdur. Amma hesab etmirəm ki, bu dəyişikliklər mahiyyət etibarı ilə Naxçıvan Muxtar Respublikasının muxtariyyətinin ləğv olunması məsələsinə yönəlib. Söhbət ilk növbədə ondan gedir ki, Azərbaycan Konstitusiyasına görə, Azərbaycan Naxçıvan da daxil olmaqla, unitar respublika, dövlətdir. Və unitar dövlətin tərkibində muxtar dövlətin olması mümkündür. Lakin bu dövlət əlamətlərindən daha çox müəyyən ərazi üzrə idarəetmə əlamətlərinə malik olmalıdır".

**Q.Əlibəyli deyib ki, yeni hazırkı şəraitdə Naxçıvan Muxtar Respublikası muxtar dövlət statusuna malikdir və bu status Azərbaycan Konstitusiyasında təsbit olunub:** "Onun tarixi əsasları Moskva və Qars müqavilələrindən irəli gəlir. Həmin müqavilələr indiyədək qüvvədədir. Lakin bu vaxta qədər, yeni 1998-ci ildə Naxçıvan Konstitusiyası qəbul olunana qədər həmin müqavilələrə istinad yox idi. Azərbaycan qanunvericiliyində Naxçıvanla bağlı belə bir istinad yer almırdı. İndi həmin istinadlar konstitusiyadan çıxarılır. Bu o demək deyil ki, bütövlükdə həmin müqavilələr qüvvədən düşmüş sayılır və orada göstərilən məsələlər ləğv olunur. Həmin sənədlərdə qeyd olunub ki, Naxçıvan Azərbaycanın himayədarlığı altında muxtar ərazi statusuna malikdir. Bu muxtariyyət respublika formasında da ola bilər, vilayət formasında da. Yəni ərazi muxtariyyəti və yaxud inzibati muxtariyyət formasında mövcud ola bilər".

**Hüquqşünasın sözlərinə görə, tam siyasi muxtariyyətin tələb olunması, yəni dövlət statusunun tələb olunması isə beynəlxalq hüquqda mümkün deyil:** "İndi təklif olunur ki, həmin müqavilələrə istinad konstitusiyadan çıxarılsın. Buna normal yanaşmaq lazımdır. Çünki Naxçıvan Azərbaycanın tərkib hissəsidir, onun ərazisidir. Bu ərazini necə idarə etmək lazım gəldiyini isə Azərbaycan müəyyənləşdirir. Ona görə də Azərbaycan Konstitusiyasında yazılıb ki, Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Konstitusiyası ilə müəyyən olunur. Başqa heç bir sənədə və ya müqaviləyə istinad edilmir. O ki qaldı ikinci məsələyə, bəli, hazırda hakimiyyətin mərkəzləşməsi prosesi gedir. Bu vaxta qədər Naxçıvan Ali Məclisinin sədri Naxçıvanda ən ali vəzifəli şəxs hesab olunurdu. O, həm Naxçıvan Ali Məclisinin fəaliyyətinə rəhbərlik edirdi, həm də Naxçıvanda icra hakimiyyətinə. İndi dəyişikliklərdə təklif olunur ki, o, ali vəzifəli şəxs statusundan məhrum edilsin və yalnız Ali Məclisin fəaliyyətinə rəhbərlik etsin. Niyə? Çünki icra hakimiyyətinin bir xüsusiyyəti var - o, dağınıq olmamalı, aşağıdan yuxarıya mərkəzləşmiş qaydada idarə olunmalıdır".

**Müsahibimiz qeyd edib ki, hazırkı dönəmdə həmin icra hakimiyyətinin Azərbaycan Prezidentinə mənsubluğu şübhə doğurmur:** "Çünki icra başçıları indi də Azərbaycan Prezidenti təyin edir və vəzifədən çıxarır. Sadəcə, əvvəllər qanunvericilikdə yazılmışdı ki, bu, Naxçıvan Ali Məclisinin sədrinin təqdimatı əsasında həyata keçirilir. İndi isə Prezident artıq o təqdimat olmadan birbaşa icra başçılarını həm vəzifəyə təyin edə, həm də vəzifədən azad edə bilər. Bu da Prezidentin səlahiyyətlərinə aiddir. Çünki Azərbaycan Respublikasında icra hakimiyyəti Prezidentə məxsusdur. Bəli, razıyam ki, artıq idarəetmədə yeni dönəm başlayır. İndi bu dönəm nə qədər uğurlu olub, ya olmayacaq - bunu gələcək göstərəcək. Amma indidən statusun dəyişdirilməsi müzakirələrinə başlanılmasını o qədər də uğurlu variant hesab etmirəm".

**Politoloq Zaur Məmmədov isə bildirib ki, Naxçıvan Muxtar Respublikasının statusunda gözlənilən dəyişikliklərdə "muxtar respublika" ifadəsinin - "vilayət" ifadəsi ilə əvəzlənməsi nəzərdə tutulur:** "1921-ci il Moskva və Qars müqavilələri ilə Naxçıvana muxtar respublika statusu verildi. Bu status SSRİ və sonradan müstəqil Azərbaycan konstitusiyalarında tanındı. 1995-ci il Azərbaycan Konstitusiyasında Naxçıvan "muxtar respublika" kimi ayrıca konstitusiyaya, parlamentə (Ali Məclis) və hökumətə sahib oldu. Yeni mərhələdə belə görünür ki, "Muxtar respublika" anlayışının hüquqi sənədlərdən çıxarılması ilə Naxçıvanın müstəqil idarəetmə strukturları ləğv olunur. Yeni islahat planlarına əsasən Naxçıvanın yerli icra orqanlarının rəhbərləri birbaşa Prezident tərəfindən təyin olunacaq. Bu isə o deməkdir ki, Ali Məclis və onun sədrinin səlahiyyətləri daralacaq. Bu, ərazi idarəçiliyinin vahid mərkəzdən - Bakıdan həyata keçirilməsi deməkdir".

❑ Xalidə Gəray,
"Yeni Müsavat"

## İranda Azərbaycana hücum çağırışı



**İranın dövlət televiziyalarından birində "beynəlxalq məsələlər üzrə ekspert" kimi çıxış edən Xoşçeşm adlı şəxs İranın Azərbaycana qarşı bir sıra hərbi hücumlar həyata keçirməli olduğunu iddia edib. Axar.az xəbər verir ki, bu barədə hüquq müdafiəçisi Azər Həsrət paylaşım edib.**

O, guya Azərbaycanın hava məkanını İsrail döyüş təyyarələrinə açdığını və bu təyyarələrin Təbrizi bombalamaq məqsədilə həmin hava dəhlizindən istifadə etdiyini iddia edib.

O, bununla kifayətlənməyərək, İranın digər qonşu ölkələrə də hücum etməsini tövsiyə edib.

"Ekspert" həmçinin Bəsrə körfəzi hövzəsində yerləşən ərəb ölkələri ilə Azərbaycanın neft obyektlərinin hədəf alınmasını təklif edib. Onun bu fikirləri güney azərbaycanlı sosial şəbəkə istifadəçiləri tərəfindən ciddi narazılıqla qarşılanıb və sosial şəbəkələrdə geniş etiraz və müzakirə doğurub.

"İran dövlət mediasında fikir müxtəlifliyinə yer verilmədiyi halda bu cür çağırışlara yer ayrılması rəsmi dairələrdə mövcud olan Azərbaycan düşmənçiliyinin bir ifadəsi kimi qiymətləndirilir", - A.Həsrət bildirib.

Qeyd edək ki, İsrail PUA-ları İranın özündən havaya qalxıb, MOSSAD-ın İranda geniş casus şəbəkəsi olduğunu Tehran özü etiraf edib, casusları və PUA sexlərini aşkarladığını bildirib, lakin heç bir sübut-dəlil olmadan "iranlı ekspertlər" Azərbaycanı ittiham etməkdən əl çəkmirlər. Halbuki Azərbaycan ərazisindən və səmasından qonşu ölkələrə qarşı istifadə edilmədiyi bəyan edib və heç vaxt belə bir hal yaşanmayacağını ən yüksək səviyyədə dəfələrlə deyib və əməli ilə sübut edib!

## ABŞ təyyarəsi Bakıda məcburi eniş etdi




**"American Airlines" aviaşirkətinə məxsus və Yeni Dehli-Nyu York marşrutu üzrə hərəkət edən hava gəmisinin kapitanı Heydər Əliyev Beynəlxalq Aeroportuna məcburi eniş üçün sorğu göndərib. Buna səbəb göyərtədəki sərnişinlərdən birinin səhhətində yaranmış kəskin problem olub.**

Aeroportdan verilən məlumata görə, "Boeing 787-9 Dreamliner" tipli təyyarə yerli vaxtla saat 02:30-da Bakı hava limanına uğurla eniş edib.

Sərnişinə dərhal yerində tibbi yardım göstərilib. Hazırda zəruri tibbi qiymətləndirmə aparılır və sərnişinin vəziyyətinə nəzarət davam etdirilir.

Zəruri prosedurlar başa çatdıqdan sonra hava gəmisinin uçuşu davam etdirilib və saat 10:31-də Bakıdan təyinat məntəqəsi - London istiqamətində havaya qalxıb.

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

# Separatçıların son "patronu" - buna da getsələr...

## Qarabağdan qaçan tör-töküntü ünsürlərin "artsax" oyunu daha nə qədər sürəcək? - iki rəy

**Separatçıların "artsax" xülyası gözlərində qalsa da, axmaq arzulardan hələ də qurtula bilməyiblər. Mifik qurumu vaxtaşırı gündəmə gətirmək yönündə uğursuz cəhdlər bunun bariz sübutudur. Məsələn, revanşist - separatçı qalıqları İrəvanda özlərinə yeni lider - qondarma prezident "seçə" bilmirlər. Səbəblər müxtəlifdir.**

"Artsax parlamenti" hələ də "prezident postuna" (dırnaqlar bizimdir - red.) namizəd irəli sürməyib və seçkilər keçirməyib. Həm də Ermənistan hakimiyyətinin DQR-lə bağlı mövqeyinə görə". Bu barədə "Armenia Today" yazıb.



Qeyd olunur ki, "seçkilər"in təxirə salınmasının səbəbləri sırasında Paşinyan hökumətinin "Qarabağ məsələsinə neqativ münasibəti" və "artsaxın dövlət institutlarının fəaliyyəti, eləcə də Ermənistanın daxili siyasi vəziyyəti ilə bağlı" amillər də daxildir.

Bundan əlavə, bildirilir ki, separatçılar regionda təhlükəsizliklə bağlı mövcud vəziyyəti və ondan irəli gələn təhdidləri də nəzərə almaq zorunda qalıblar. Yəni "dəmir yumruq" xofu.

Xatırladaq ki, mayın 21-də sonuncu mifik prezident Samvel Şahramanyanın səlahiyyət müddəti bitib.

Separatçı ünsürlərin "artsax" oyunu daha nə qədər sürəcək? Az qala hər addımda Azərbaycan və Türkiyə ilə barışığın zəruriliyindən danışan Paşinyan onların İrəvandakı yeganə ofisini niyə bağlamır? Rusiya təzədən bu məsələni Azərbaycana qarşı körükləyə bilərmi?

**Deputat Günay Ağamalı** "Yeni Müsavat"a açıqlamasında bu cür davranışların heç bir hüquqi və siyasi əsasının olmadığını qeyd etdi: "Separatçılıq meylləri və "artsax" adlı qondarma rejimin yenidən gündəmə gətirilməsi cəhdləri tarixin zibilliyinə atılmış xülyaların canlandırılması cəhdlərindən başqa bir şey deyil. Bu kimi davranışlar heç bir hüquqi və siyasi əsas daşımır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisində ikinci bir "idarəetmə qurumu" anlayışı mövcud deyil və heç vaxt da olmayacaq. Azərbaycan Ordusunun 2020-ci ildən bəri nümayiş etdirdiyi qətiyyət, dövlətimizin suverenlik və ərazi bütövlüyü uğrunda apardığı prinsipial siyasət separatçılara verilmiş açıq mesajdır. Mayın 21-də Samvel Şahramanyanın səlahiyyətlərinin başa çatması əslində "artsax" deyilən saxta qurumun tarixi fiaskosunun hüquqi göstəricisidir. Azərbaycan sülh gündəliyini təşviq edir və regionda davamlı əməkdaşlıq mühiti formalaşdırmaq üçün konstruktiv addımlar atır. Ermənistanın bu çağırışlara qoşulması vacibdir".

**G.Ağamalı vurğuladı ki, İrəvanda qalan separatçı elementlərin fəaliyyəti, onların ofislərinin hələ də bağlanmaması, Paşinyan hakimiyyətinin bəzi məqamlarda verdiyi ziddiyyətli siqnallar cəmiyyətlərarası etimadın formalaşmasına əngəl yaradır:** "Eyni zamanda bəzi xarici güclərin - xüsusilə Rusiya daxilindəki müəyyən dairələrin bu qondarma strukturun adından danışmağa çalışması qəbuledilməzdir. Aydındır, rəsmi Moskva yenidən regionda 2020-ci ilə qədər olan mövqelərini bərpa etməyə çalışır. Ancaq bölgənin siyasi konfiqurasiyası köhnə metodların interaktivliyini minimallaşdırır. Eyni zamanda Azərbaycan heç vaxt köhnə narrativlərin qaytarılmasına imkan verməyəcək və beynəlxalq hüquqa əsaslanan mövqeyindən bir addım da geri çəkilməyəcək.

Ölkə başçımız, Müzəffər Ali Baş Komandan, Cənab İlham Əliyevin iradəsi və xalqımızın sarsılmaz birliyi separatizmin qarşısında ən güclü sipərdir. Regionda sabitliyin və inkişafın yeganə yolu sülh və beynəlxalq hüquqa hörmətdən keçir. Separatçılığa veriləcək ən qətiyyətli cavab suverenliyimizə sarsılmaz bağlılığımızdır. Azərbaycan heç bir təxribata imkan verməyəcək və öz ərazi bütövlüyünü daim qoruyacaq".

**Politoloq Züriyə Qarayevanın sözlərinə görə, Qarabağda separatçı "artsax" xülyası artıq tarixin tozlu arxivlərinə gömülsə də, bəzi revanşist dairələr bu reallığı qəbul etməkdə hələ də çətinlik çəkir:** "İkinci Qarabağ müharibəsi və 2023-cü ilin antiterror tədbirlərindən sonra Azərbaycan öz suverenliyini tam şəkildə bərpa etsə də, separatçıların xaricdəki "dəstəkçiləri" vasitəsilə həyata keçirdiyi simvolik cəhdlər hələ də davam edir. Bu cəhdlər əslində nə siyasi, nə hüquqi, nə də real ictimai dəstəyə malikdir - sadəcə, daxili auditoriyanı aldatmaq üçün qurulmuş illüziyalardır. Məsələn, son günlərdə İrəvanda separatçıların özlərinə yeni "lider" seçmək cəhdinin alınmaması, erməni mətbuatının da qeyd etdiyi kimi, həm Ermənistan hökumətinin bu məsələyə olan soyuq münasibəti, həm də daxili siyasi xaosla bağlıdır. Qondarma "artsax parlamenti" hələ də yeni "prezident" irəli sürməyib və görünən odur ki, seçkilərin keçirilməsi qeyri-mümkünləşib. Separatçıların öz aralarında da birlik və aydın siyasi xətt yoxdur. Bu isə bir daha göstərir ki, mifik "artsax dövləti" artıq siyasi fiasko mərhələsindədir. Bu vəziyyət həm də Paşinyan hakimiyyətinin rəsmi Bakı ilə münasibətlərdə yeni səhifə açmaq istəyinin bir göstəricisidir".

**Ekspert hesab edir ki, Ermənistan tərəfi artıq "Qarabağ Ermənistandır" şüarının siyasi nəticələrinin nə qədər ağır olduğunu anlayıb və bundan geri çəkilmək niyyətindədir:** "Lakin Paşinyanın "barışıq ritorikası" ilə real addımlar arasında ciddi uyğunsuzluq qalmaqdadır. İrəvanda separatçıların ofisinin hələ də fəaliyyət göstərməsi, Ermənistanda onlara tanınan siyasi və texniki imkanlar bu ziddiyyətin davam etdiyini sübut edir. Bu kontekstdə diqqətçəkən məsələ isə Rusiyanın mövqeyidir. Moskvanın regiondakı təsir imkanları azalsa da, müxtəlif kanallarla separatçılıq alovunu yenidən qızışdırmaq potensialını tam itirməyib. Diyi də məlumdur. Ermənistan-Azərbaycan münasibətlərində balansı dəyişmək və təsir imkanlarını qorumaq üçün Rusiya yenidən separatçı məsələsini gündəmə gətirə bilər. Bu isə həm sülh prosesinə, həm də regional sabitliyə ciddi təhlükə yarada bilər".

**Z.Qarayevanın fikrincə, Azərbaycanın "Dəmir yumruq" amili bu kimi cəhdlərə qarşı ən ciddi cavabdır:** "2020-ci ildən sonra formalaşan reallıq göstərdi ki, Bakı heç bir separatçılıq niyyətinə, silahlı qrup fəaliyyətinə və ya "qondarma institut" oyunlarına güzəştə getmək niyyətində deyil. Və bu iradə təkcə hərbi güclə deyil, həm də beynəlxalq hüquq və diplomatik mövqeyin güclənməsi ilə təmin edilir. Sonda bir sual aktual qalır: "Separatçılar hələ nə qədər bu köhnəlmiş mifin arxasında gizlənməyə çalışacaqlar?" Görünən budur ki, bu oyun artıq dünya üçün də, erməni cəmiyyəti üçün də tükənmiş bir səhifədir. Yeni reallıq isə bölgədə sülh, əməkdaşlıq və sabitlik üzərində qurulmalıdır. Ermənistanın da bu reallığı qəbul etməsi gecikdikcə, daxili siyasi böhranlar və regional təcrid prosesi dərinləşəcək".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Erməni deputata brilyant daşıyanlar yaxalandı



**Rusiyanın Federal Təhlükəsizlik Xidməti "Alrosa" şirkətinin istehsalı olan yüksək əyarlı almazları qarət edərək, Ermənistanın hakimiyyətyönümlü deputatı Xaçatur Sukiasyanın şirkətinə satan dəstə üzvlərini həbs edib.**

APA "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə Rusiyanın İstintaq Komitəsi məlumat yayıb. Qurumun mətbuat xidmətindən bildirilib ki, qarət olunan qiymətli metallar erməni deputatın "ADM Daymonde" şirkətinə satılıb.

Məlumatda həmçinin cinayətin törədilməsində beynəlxalq axtarışda olan A.A.Baqikyan qardaşlarının da iştirak etdiyi açıqlanıb.

## ABŞ Bakıdakı bu tədbiri təxirə saldı

**ABŞ-ın Bakıdakı Müstəqillik Günü qəbulu təxirə salınıb. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyi məlumat yayıb. "27 iyun 2025-ci il cümə gününə planlaşdırılan ABŞ Müstəqillik Günü Qəbulunun bölgədəki son hadisələrə görə təxirə salındığını təəssüflə bildiririk", - məlumatda qeyd edilib.**

## İrəvandan Tehrana şok zərbə



**AzTV-də yayımlanan "Həftə" analitik-informasiya proqramında Ermənistan ərazisinin İrana qarşı hərbi məqsədlərlə istifadə olunması iddiaları müzakirə edilib. Verilişin aparıcısı Rövşən Məmmədov diqqətçəkən detalları tamaşaçılarla bölüşüb.**

O bildirib ki, 2024-cü il avqustun 2-də ABŞ-ın Rumıniyadakı hərbi bazasından İrəvandakı Zvartnots aeroportuna "Boeing-17" tipli iki hərbi-yük təyyarəsi enib. Bu təyyarələrlə birlikdə amerikalı hərbi mütəxəssislər də Ermənistan ərazisinə daxil olub.

Məlumata görə, həmin təyyarələrdən birində raket qurğularının atəş nöqtələrini müəyyənləşdirməyə imkan verən xüsusi cihazlar olub. Bu texnologiya İran ərazisindən buraxılan silahların trayektoriyasına real vaxtda nəzarət imkanı yaradır.

Rövşən Məmmədov daha bir məqamı diqqətə çatdırıb. Ermənistandakı Avropa müşahidəçiləri - "binokl şou"su ilə tanınan beynəlxalq heyətin - İranın hərbi obyektləri barədə informasiyaları Zəngəzurda yerləşdirilmiş amerikalı mütəxəssislərə ötürüb. Həmin heyətin tərkibində alman, fransız, kanadalı agentlərin və xüsusi xidmət orqanlarının əməkdaşlarının olduğu bildirilir.

Yeni Müsavat
N 107 (8717) 24 iyun 2025

# Rusiya və İranla sərhədlərimiz açıq olsaydı, nələr baş verərdi...

## İki böyük qonşumuz od-alovun içindədir; rəsmi Bakı "təhlükəsizlik adası" yaradır

**Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb. Bu barədə baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb. Musavat.com xəbər verir ki, qərara əsasən, koronavirus (COVİD-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2025-ci il 1 oktyabr saat 06:00-dək uzadılıb.**

2020-ci ilin 23 martında Nazirlər Kabinetində baş Nazir Əli Əsədovun sədrliyi ilə keçirilən iclas zamanı ölkədə koronavirus infeksiyası ilə bağlı vəziyyət müzakirə olunduqdan sonra infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə xüsusi rejim tətbiq edilməsi haqda qərar qəbul edilmişdi. O vaxtdan artıq 5 ildən artıq vaxt keçib. Xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar bir sıra məhdudiyyətlər Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri əsasında insanların həyatını qorxunc virusdan qorumağa hesablanmışdı. O zaman ən çox tövsiyə edilənlər əllərin təmiz saxlanılması, dezinfeksiya, ara məsafəsinin saxlanılması və bu kimi məsələlər idi. Artıq COVİD-lə bağlı qorxunc situasiya geridə qalsa da, daha dəhşətli fəlakətlərin sərhədlərimizə yaxın olması dövlətin təhlükəsizlik tədbirlərini davam etdirməsini zəruri edir.

**Milli Məclisdə hökumətin iştirakı ilə keçirilən müzakirələr zamanı baş nazir Əli Əsədov belə demişdi:** "2020-ci ilin 31 mart tarixindən başlayaraq Azərbaycanın quru sərhədləri bağlıdır. Buna mən imza atmışam. Bu, qanunauyğun olaraq baş nazir kimi mənim səlahiyyətimdir. Bu yaxınlarda da yenə 3 aylıq sərhədləri bağlamışam".

Aylar öncə bu sözlər yüksək tribunadan bəyan olunarkən cəmiyyətimiz üçün İsrail-İran müharibəsi üfüqdə qızartı kimi də görünmürdü. Amma heç şübhəsiz ki, dövlət təhlükələrdən məlumatlı idi. 2022-ci ilin fevralında da Rusiyanın Ukraynaya hücumu çoxları üçün şok təsir bağışlamışdı. O zaman Azərbaycanda xüsusi karantin rejiminin niyə ləğv olunmadığı barədə müzakirələr açanlar, hətta bəzi hallarda dövləti ittiham edənlərin xeyli hissəsi dövlət ağlı qarşısında susmağa vadar oldular, yanlış düşündüklərini hiss etdilər.

Bu gün 2025-ci ilin 23 iyununda baş nazirin xüsusi karantin rejiminin müddətinin 1 oktyabr saat 06:00-dək uzadılması barədə verdiyi qərara da ağız büzənlərin tapılacağı şübhəsizdir. Amma əminlik var ki, İsrail-İran müharibəsinin faktiki olaraq davam etməsi, qulağımızın dibində bütövlükdə regionu öz ağuşuna ala biləcək fəlakətlərin yaşanması halında Azərbaycan dövlətinin qərarının nə dərəcədə haqlı olduğunu etiraf edənlərin sıraları qat-qat artıb. Düzdür, indi dövlət öz vətəndaşından COVİD-19-a görə ara məsafəsini gözləməyi tələb etmir. Amma dövlətimiz özü normal münasibətlərdə olduğu Ukrayna ilə yanaşı, Rusiya ilə, həmçinin İsraillə birgə İranla, o cümlədən savaşa qoşulduğunu artıq nümayiş etdirən ABŞ-la münasibətlərdə ara məsafəsini gözləyir ki, savaşın alovu bayrağımıza, sərhəd bütövlüyümüzə sıçramasın. Dövlətimiz həm özünün, həm də vətəndaşının şimal və cənubumuzda davam edən müharibədən SAĞ, xətərsiz çıxmağımız üçün əlindən gələni edir. Odur ki, dövlətə kömək vaxtıdır, ən azı onun qəbul etdiyi mühüm qərarları müdafiə etməklə...

ABŞ Dövlət Departamenti özünün illik hesabatında quru sərhədlərin bağlı saxlanılmasını insan hüquqlarının pozuntusu kimi dəyərləndirmişdi. Amma həmin ABŞ-ın başçısı Senatın, Konqresin rəyini nəzərə almadan, Dövlət Departamentinə belə məhəl qoymadan, BMT Təhlükəsizlik Şurasının qərarı olmadan, eləcə qolf oynaya-oynaya (!!!) İranın vurulması əmrini verdi. İndi Dövlət Departamenti desin görək: təhlükəsizliyi naminə sərhədlərini bağlı saxlamağa qərar verən dövlətin addımı qanun pozuntusudur, yoxsa şəxsi qərarı ilə 3-cü Dünya müharibəsinə, nüvə təhlükəsi ilə bölgənin məhvinə rəvac verə biləcək addımın atılması?..

Bu gün dünyada koronavirusla bağlı ajiotaj doğuracaq hal yoxdur, bəli. Yadınızdadır yəqin, bütün dünyada hava məkanı bomboş olurdu, nə uçan var idi, nə qaçan, hərə öz köşəsinə çəkilmişdi, maskası ağız-burnunda. Artıq ikinci həftədir İranın, İsrailin və bir sıra digər ölkələrin də hava məkanında bənzər vəziyyətdir, quş da səkə bilmir hava məkanından, koronanın yox, ballistik raketlərin qorxusundan. COVİD vaxtı taxılan maskalar bir başqa, indi yırtılan maskalarla yanaşı, hələ də maskalanmış, "dini məqsədlərlə", "dialoq", "sülh təşəbbüsü" ilə "silahlananlar" daha qorxuludur. Belə bir durumda nəinki hava məkanı, eləcə də quru sərhədlərdə də ehtiyatlı olmaqda fayda var. Sonda ən ağır yükü dövlət çəkir. Necə ki, Rusiya səmasında mülki təyyarəmiz vuruldu, münasibətlər gərginləşdi, bu günədək normal axarına düşməyib. Müharibə dəhşətdir, qan-qadadır, həm də nə qədər məsafə saxlanılsa, o qədər təhlükəsizlik deməkdir.




Bir anlıq təsəvvür edək ki, Rusiya və İranla sərhədlərimiz açıq olsaydı, nələr baş verərdi. Hər iki ölkədə yaşayan soydaşlarımızın, yaxud həmvətənlərimizin sayı milyonlarladır. Heç birisinin başından bir tükün əskilməsini istəmirik və tezliklə bu müharibələrin bitməsini arzulayırıq. Amma əgər baş verənlər bizim iradəmizdən kənardadırsa, o halda selin qarşısına çıxmaqla onu dayandırmaq mümkünsüzdürsə, daha çox təhlükəsizliklə bağlı düşünmək, addımlar atmaq lazımdır. Azərbaycan Respublikası bütün dünyada yaşayan azərbaycanlıların Vətənidir. Dövlətimizə xətər dəyməsini heç şübhəsiz, nə İranda, nə Rusiyada, nə də İsraildə yaşayan azərbaycanlılar istəməzlər, buna əminik. Bu mənada kimlərsə demaqogiya ilə məşğul olmasın ki, baxın, Azərbaycan sərhədlərini bağlayıb və müharibədən qaçmaq istəyənləri qəbul etmək istəmir. Əvvəla, çox şükürlər olsun, hər iki böyük qonşumuzda müharibə o həddə çatmayıb ki, yüz minlərlə, bəlkə də milyonlarla azərbaycanlı xilas olmaq üçün - İraq və Suriyada olduğu kimi - baş götürüb Azərbaycana qaçsın. İraq olsun, belə bir hal baş verərsə, Azərbaycanın varlığına belə, təhdid yaranar. İndiki halda ən arzuolunan İranda, Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların təhlükəsizlik ünvanlara çəkilmələri, hərbi obyektlərdən, digər İsrail, yaxud ABŞ hədəfi ola biləcək ünvanlardan kənarda qalmalarıdır. Heç kim öz ev-eşiyini atıb qaçqın-köçkün taleyi yaşamaq istəməz, o cümlədən soydaşlarımıza bunu arzulamırıq. Ona görə də kimlərsə sərhədlərin açılması ilə azərbaycanlıların köçünə stimul yaratmağa çalışırsa, böyük səhvə yol verir. Əslində bu, bədxahlarımızın niyyətidir. Onsuz da Güney Azərbaycan torpaqlarının ələ keçirilməsi, azərbaycanlıların dədə-baba yurdlarından qovulması üçün əli silahlı marıta yatan qüvvələr var. Elə iki-üç ay əvvəl Urmiyaya sahiblənmək istəyənlərə soydaşlarımızın "Urmiya bizim qonaq otağımızdır, onu kimsəyə vermərik", cavabından sonra bir çox qüvvələr susdular. İndiki situasiyada İsrail və ABŞ-ın Təbriz, Ərdəbil və digər şəhərlərdəki hərbi obyektləri hədəfə almasından - biz doğma torpaqlara və şəhərlərə hücumları təbii ki, qəbul etmirik və İran hakimiyyətinin yanlışlarının da səbəb olduğu situasiyadan təəssüflənirik - sui-istifadə edənlərin tarixi Azərbaycan ərazilərini qəsb etməyə hazır olduqlarını da yaxşı bilirik. Azərbaycanın hökumət başçısı bəzi iddialara cavabında demişdi ki, quru sərhədləri bağlı olsa da, 2021-ci ildə ÜDM 5,6 faiz, 2022-ci ildə 5,7 faiz artıb. Rəqəmlər narahatlığa ehtiyac olmadığını deyir. Ölkə iqtisadiyyatına ziyan dəysə də, gün gələr, aradan qaldırılar, amma dövlətin təhlükəsizliyinə, xalqın rifahına hansısa təhdidin yaranmasının hansı nəticələrə gətirib çıxara biləcəyini ayrı-ayır ölkələrin acı təcrübəsində az görməmişik.

Məsələyə yalnız birtərəfli yanaşmaq qüsurludur. Dövlət öz qərarını verərkən hər bir vətəndaşın taleyini düşünür. Fikirlərinə kifayət qədər etimad etdiyimiz dostlarımızdan birinin dediyi kimi, təsəvvür edin ki, sərhədlər açıq olardı və xurma almağa, müalicə olunmağa, yaxud gəzməyə gedən azərbaycanlılardan bir neçəsi İranda qandallanıb "İsrailə casusluğa görə" ittiham olunsaydı, onda vəziyyət necə olardı? İranın Azərbaycana necə "dost" olduğunu son illərdə dəfələrlə görməmişikmi?

Elə bu gün İranda İsrail kəşfiyyatı ilə əməkdaşlıqda ittiham olunan 26 yaşlı şəxs, 2023-cü ilin payızında həbs edilmiş Məhəmməd Əmin Məhdəvi Şayistə edam edilib. İddia olunub ki, o, "Mossad"la əlaqəli kiberqrupun rəhbəri olub. 2023-cü ildə İran İslam Respublikasında "casusluq" ittihamı ilə saxlanılan Azərbaycan Respublikasının vətəndaşı Səfərli Fərid Qabil oğlunu dövlətimiz 18 yanvar 2025-ci il tarixində edamın bir addımlığından xilas edə bildi. Təsəvvür edin ki, indi, İranın bir sıra dairələrində heç bir əsas olmadan Azərbaycanı havaya qalxan dronlara görə ittiham edənlərin kirimədiyi bir vaxtda da hansısa vətəndaşımız şərlənsə, taleyi necə olar. Ona görə də dövlətimizə, liderimizə güvənək, etibar edək, sərhəd qərarı həm də hər bir vətəndaşı xilas qərarıdır. Dövlət səni, məni, onu, hər birimizi qoruyur...

Azərbaycan dövləti təbrizli, ərdəbilli, zəncanlı, mərəndli, hətta tehranlı azərbaycanlıları ayrı-ayrılıqda düşünmür, onların hamılıqla müharibə alovundan sağ-salamat, zərər çəkmədən çıxması üçün Dövlət Ağlı ilə çalışır, işləyir. İsrailə ünvanlanan narahatlıqlar sıradan məsələ deyil. Dövlətimiz İranın vurulmasına, radiasiya təhlükəsinə, azərbaycanlıların taleyinə dair narahatlıqlarını dərhal nümayiş etdirdi. Bu, həm Quzeyin, həm də Güneyin xilas formuludur, alternativi yoxdur.

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

# Paşinyana son "ev tapşırığı" - İrəvan bu şansı da qaçırsa...

## Ərdoğan erməni baş nazirə Bakı ilə Ankaranın əsas gündəliyini təqdim etdi; bəs Ermənistan tarixi fürsəti dəyərləndirəcəkmi?

**Ermənistanın baş naziri Nikol Paşinyanın Türkiyəyə tarixi səfəri reallaşdı. Hazırda siyasi müşahidəçiləri düşündürən əsas sual səfərin mümkün nəticələri ilə bağlıdır. Çünki tərəflər hər hansı birgə bəyanat və ya çağırışla çıxış etmədi. Danışıqların təfərrüatı əsasən məxfi saxlanıldı.**

Bununla belə, prezident Rəcəb Tayyib Ərdoğanın Paşinyana bir daha Bakı və Ankara ilə sülh gündəliyinin detallarını izah etdiyi şübhə doğurmur. Yəni Ermənistan rəhbərinə bir növ son "ev tapşırığı" verilib. Daha bir səbəbə: səfərdən cəmi bir gün öncə Azərbaycan Prezidenti İlham Əliyev qardaş ölkədə olmuş, Ərdoğanla görüşmüşdü...

Türkiyə səfərindən gözləntilər barədə danışan Paşinyan deyib ki, bir sıra regional məsələlərdə Ermənistan və Türkiyənin mövqeləri kifayət qədər yaxındır: "Təəssüf ki, bölgəmizdə kifayət qədər gərginlik qalmaqda davam edir. Bu cür səfərlərin və təmasların əsas məqsədlərindən biri də regionun daha sabit, daha dinc, daha təhlükəsiz olması üçün nə edə biləcəyimizi müzakirə etməkdir. Bu kontekstdə təmasların ən mühüm gündəliyi budur".

**Onun sözlərinə görə, bir sıra regional məsələlərdə Ermənistanla Türkiyənin mövqeləri kifayət qədər yaxındır**: "Bu, tez-tez baş vermir, lakin indi nəzərə çarpır ki, bir sıra məsələlərdə bizim kifayət qədər oxşar təsəvvürlərimiz var. Söhbət beynəlxalq gündəmdəki məsələlərdən gedir. Bu, həm də münasibətlərin əhval-ruhiyyəsinə və atmosferinə müəyyən təsir göstərən amildir".

**Ardınca o, Ermənistanın Türkiyədə konsulluğunun açılmasını arzuolunan adlandırıb**: "Bizim məqsədimiz Ermənistanla Türkiyə arasında diplomatik əlaqələr qurmaq, sərhədləri açmaqdır ki, bu da Ermənistanla Türkiyə arasında avtomobil və dəmir yollarının açılmasını nəzərdə tutur. İki ölkə arasında münasibətlərin normallaşması zaman məsələsidir və bizdən ardıcıl olmağı, fəal işi davam etdirməyi, fəal dialoq aparmağı, bir-birimizi dinləməyi və öz mövqelərimizi mümkün qədər aydın şəkildə təqdim etməyə çalışmağı tələb edir. Və əməkdaşlığın nəticələrinə əsasən əminəm ki, nəticələrimiz olacaq".

Nikol Paşinyan Türkiyə və Ermənistanın hansı "ortaq mövqe yanaşmalarına" işarə vurur? Ən əsası, İrəvan Bakı və Ankaranın ona verdiyi son "ev tapşırığı"nın öhdəsindən gələ biləcəkmi?



**"Yeni Müsavat"a danışan professor Qabil Hüseynli əvvəl gündən əmindir ki, Paşinyan Rusiyadan uzaqlaşıb, Türkiyəyə yaxınlaşmağı Avropaya çıxışda yeganə fürsət bilir. Onun qənaətinə görə, İstanbul görüşü hazırlıq mərhələsi idi və normallaşma prosesində mühüm addım atıldı:** "Mən istisna etmirəm ki, Ərdoğan onun dəvətini qəbul edərək gələn il İrəvana səfər edəcək. Doğrudur, hadisələr hər an dəyişə bilər, amma buna qədər Ərdoğanla Paşinyan arasında növbəti görüşləri də gözləyirəm. Bu prosesdə Ermənistan hökumətinin Türkiyədən istəkləri var. Söhbət Rusiyadan artan təhdidləri neytrallaşdırmaqda Ankaranın və Bakının dəstəyini qazanmaqdır. Çünki seçkilər gəlir və Paşinyan bu gərgin situasiyadan çıxmaq istəyir. Ona görə İstanbula xahişə gələ bilər ki, onu bu dönəmdə Zəngəzur və digər öhdəliklərlə bağlı çox sıxmasınlar, möhlət versinlər".

**Professor hesab edir ki, uzunvədəli bir proses olduğunu nəzərə alsaq, indi Bakı və Ankara Paşinyan üçün "xilas kəməri" ola bilər:** "Ermənistanda ara qarışmaqdadır. Rusiya və daxildəki qüvvələr hakimiyyəti sıxışdırır. Paşinyan belə bir dönəmdə konstitusiya dəyişikliyi və digər radikal qərarlar verməyə qorxur. İstanbulda danışıqların əsas bəndi bu ola bilər. Sadəcə, danışıqların əsas detalları konfidensial saxlanıb. Biz arxayınıq ki, qardaş Türkiyə Azərbaycansız hər hansı addım atmaz, bizi narazı salacaq bir qərar verməz".

**Siyasi icmalçı Asif Nərimanlının səfərlə bağlı şərhi kifayət qədər maraqlıdır. Onun sözlərinə görə, Paşinyanın Türkiyəyə səfəri regionun bəlasına çevrilən erməni iddialarının arxa plana keçməsi və normallaşma baxımından tarixi hadisə olmaqla yanaşı, rəsmi İrəvanın konkret hədəflərinə də hesablanıb:** "Avropa bazarına çıxış əldə etmək və dalandan xilas olmaq".

**Təhlilçiyə görə, buna nail olmağa çalışan Ermənistan hakimiyyəti hədəfə gedən yolda bir neçə nəticə əldə etməlidir:** "Türkiyə ilə münasibətlərin üçüncü tərəfin, yəni Azərbaycanın maraqları nəzərə alınmadan qurulması; sərhədlərin qeyd-şərtsiz və qısa müddətdə açılması; regional kommunikasiyanın açılmasında Zəngəzur dəhlizi layihəsini arxa plana keçirmək və "sülhün kəsişməsi" layihəsini qəbul etdirmək".

**A.Nərimanlı hesab edir ki, İrəvan-Ankara danışıqlarında Ermənistanın əsas niyyəti əvvəldən bu olub, Paşinyanın Türkiyəyə indi səfər etməsi isə istəklərini ən yüksək səviyyədə təqdim etməklə yanaşı, regional proseslərdən də qaynaqlanır:** "Birincisi, Ukrayna ətrafında danışıqlar prosesinin başlanmasından sonra Rusiyanın yenidən regionda aktivləşməsi və mövqelərini ilk olaraq Ermənistanda bərpa etmək cəhdləridir və bu, Paşinyan hakimiyyətinə həm xarici siyasət kursunda, həm də daxili mövqelərində risklər vəd edir: İrəvan Ankara ilə anlaşa və sərhədlərin açılması ilə dalandan çıxa biləcəyinə ümid edir. Buna nail olmaq Moskva qarşısında sərbəst siyasət aparmağa mane olan iqtisadi asılılığı da zəiflədə bilər".

**Ekspertin fikrincə, ikincisi, Ermənistanın regionda əsas müttəfiqi kimi gördüyü İranın faktiki olaraq oyundankənar vəziyyətə düşməsidir:** "Bu, İrəvanı regionda təklənmiş vəziyyətə salır və xüsusilə Rusiya qarşısında "məcburi geriçəkilmə" perspektivləri yaradır. İranın kənarda qalmasından sonra Türkiyə Ermənistan üçün regionda alternativ güc rolunu oynaya bilər, Paşinyanın səfəri ən azı belə bir imkanın olduğunu sərgiləməyə hesablanıb. Türkiyə mövcud şərtlərdə Ermənistan üçün heç olmadığı qədər vacib oyunçuya çevrilib. Hərçənd İrəvanın bütün cəhdlərində çıxacağı qapı eynidir: Ankara ilə münasibətləri normallaşdırmaq, sərhədlərin açılmasına nail olmaq üçün Bakı ilə sülh sazişini imzalamaq".

Analitik əmindir ki, Paşinyanı İstanbulda qəbul edən Ərdoğanın bir gün öncə Əliyevlə görüşü də Bakı ilə "saatları yoxlamaq" və Azərbaycan olmadan Ermənistanla anlaşmanın olmayacağına əminlik yaratmaq, eləcə də Paşinyana Ankara-Bakı gündəliyini təqdim etmək məqsədi daşıyırdı: "Ərdoğan-Paşinyan görüşündə Azərbaycan-Ermənistan sülh prosesinin müzakirə edilməsi də bunu deməyə əsas verir".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"



## Manukyandan mina xəritələri ilə bağlı ilginc etiraf

**İyunun 23-də Bakı Məhkəmə Kompleksində keçirilən prosesdə Ermənistan Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər müttəhimlər kürsüsünə çıxarılıb. Ötən prosesdə Azərbaycanın işğal altında olmuş ərazilərində hərbi cinayətlərdə və beynəlxalq hüququn pozulmasında ittiham olunan Ermənistan Silahlı Qüvvələrinin general-mayoru, qondarma rejimin "ordu komandanının birinci müavini" olmuş David Manukyanın dindirilməsi davam etdirilib.**

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran David Manukyan işğal dövründə minalama işləri ilə bağlı maraqlı detallar açıqlayıb. Onun sözlərinə görə, ərazilərin minalanması əməliyyatları yuxarı komandanlığın yazılı əmrləri əsasında aparılıb. O etiraf edib ki, mina xəritələri və formulyarları bir neçə nüsxədə hazırlanır, aidiyyəti strukturlara göndərilir və bu proses ciddi nəzarət altında həyata keçirilirdi. Bu, Ermənistan tərəfinin illərlə "xəritələr itib" bəhanəsini təkzib edən mühüm ifadələrdən biridir.

Prokurorun digər suallarını cavablandırarkən Manukyan bildirib ki, Xankəndidəki "Cəsurlar dəstəsi" Ermənistan Müdafiə Nazirliyi tərəfindən formalaşdırılıb və bu struktur birbaşa rəsmi İrəvanın tabeçiliyində olub. O, həmçinin döyüşlərdə iştirak edən xarici vətəndaşların kimliyini yoxlamaq səlahiyyətinin olmadığını, onlara nəzarət etmədiyini iddia edib. Əsir və girovların qul kimi işlədilməsi, işgəncəyə məruz qalması ilə bağlı suallara cavab verərkən isə deyib ki, özü heç bir zorakılığın şahidi olmayıb. Bu ifadə məhkəmə zalında çaşqınlıq doğurub, çünki həmin dövrdə mülki əhaliyə və əsirlərə qarşı törədilən ağır cinayətlərin sübutları mövcuddur.

Manukyan həmçinin etiraf edib ki, qondarma rejimin silah-sursat, texnika və canlı qüvvə təminatı bilavasitə Ermənistan tərəfindən həyata keçirilib. Hətta ehtiyatlar tükəndikdə bütün təminatlar İrəvandan göndərilib. Azərbaycan şəhərlərinin "İsgəndər M" və "Toçka U" raketləri ilə vurulması barədə əmrin kim tərəfindən verilməsindən xəbərsiz olduğunu iddia edən Kamo Manukyan bildirib ki, qondarma rejimin ordusunun silah arsenalında bu tip raketlər olmayıb. Lakin bu bəyanat Ermənistanın birbaşa müharibəyə cəlb olunması faktını dəyişmir. Beləliklə, məhkəmənin araşdırmaları Ermənistan rəhbərliyinin planlı şəkildə müharibə cinayətləri törətdiyini və Azərbaycanın mülki əhalisinə qarşı hücum əmrləri verdiyini ortaya qoyur.

❑ Musavat.com



# Stəkanda fırtına

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud giriş haqqında

**Son zamanlar paytaxtımızda qəribə hal müşahidə olunmaqdadır: ya şəhər rəhbərliyi, ya da hansısa tikinti şirkəti camaatın mənzilə girişini bağlayır, onları hansısa icazələrlə evə buraxırlar. Məsələn, dünən bir informasiya gördüm, orada adam deyirdi ki, tikinti şirkəti qonşuluqda ərazi alıb, lakin mənim evimi də çəpərləyibdir, indi məcburam hər dəfə evə girəndə tikintinin mühafizəçisindən icazə istəyim, belə şey olarmı, bəs qanun hanı, görəsən, dünyaya nöş gəlir insan, bu nə bəladı düşmüşük Allah, bizləri çaşdırdı cavanlıq, indi çəkirik ikimiz ah və sairə.**

Əlbəttə, "bəs qanun hanı" ifadəsindən sonrakı hissə fəqir bəndənizin fantaziyasının məhsuludur, vətəndaşlarımız siyasətə qarışmır. Mən isə, əlaqədar orqanlardan üzr istəyirəm, "qanun" sözü görən anda ilhama gəlirəm, xəyallarım qanadlanır. Özümdən asılı deyil. Hamısı ana yurdumuzun çiçəklənməsi ilə əlaqədardır. (Bunun özü də maraqlı haldır, "əlaqədar" yazan kimi "orqanlar" yadımıza düşür. Çünki bunların biri olmasa, o biri də olmaz).

Hüquq və qanunlar vacibdir. Məsələn, Putin İsrailin İrana hücumları münasibətilə görün nə deyib: "Bu hücumların heç bir hüquqi əsası yoxdur. Rusiya olaraq İranı dəstəkləyirik". Təsəvvür elə, Putin beynəlxalq hüquqdan danışır... Deyirlər çıxışı izləyən Kursk vilayəti sakinlərindən bir neçəsi gülməkdən partlamaya düşüb. Peskov araq içdiyi yerdə çeçəyib, nemət heyf olub. Priqojin o biri dünyada mayallaq aşıb. Hətta patriarx Kirill xaç çəkib.

Vəziyyət, hal-qəziyyə belədir. Nə etmək olar ki? Atalar demişkən, malımız budur, yarısı sudur, alsan da budur, almasan da budur. Hələ gör ulu kitabımız "Oğuznamə"də nə deyir: "Təki ayranın olsun, sinək Bağdaddan gəlür qonar". Yəni bu dəqiqə dünyada kim ayağını hara basdısa, kimin milçəyi hara qondusa, deyir bura mənimdir.

Ancaq mənzillərə icazə ilə gedilməsi konsept olaraq uğurludur, şəhərimizin gələcək inkişafı üzrə dövlət proqramlarına, Operativ Qərargahın karantin müddətinə (dünyada ən uzun karantin olaraq Ginnesin rekordlar kitabına, həmçinin Ginnes pivəsi bakalına layiq görülmüşdür) tam uyğundur. Soruş niyə, yazım.

Məsələ bundadır ki, hazırda bütün dünya uçan taksi xidmətlərinə hazırlıq görür. Niyə bakılı vətəndaşlarımız evlərinə bu cür, pəncərədən, uçaraq girməyə hazır olmasın? Bəsdir skuter sürdük. Uçmaq üçün yarananlar yerdə sürünməz!

Bu, arxitektura üzrə də yenilikdir, mənim yadıma gəlir, yazda bir qrup adam çoxqatlı binadakı mənzillərinə qalxa bilmirdi, çünki birinci mərtəbədə yaşayan kimsə birbaşa... pilləkəni sökmüşdü. Əslində burada siyasi çalar var idi, çünki pilləkən politik ədəbiyyatda yuxarı qalxmağı, siyasətə və haradasa seçkilərə qarışmağı özündə ifadə edir. Hardasa. Yəni çox da əmin deyiləm. Ümid edirəm sayın oxucularımız da belə səy-süy fikirlərə qatılmaz, qəlb rahatlığı ilə ekranlara dönüb qayınatası ilə qaçan baldızın əhvalatını izləməyə davam edərlər.

O cümlədən evə girib-çıxmaq sizin haranıza yaraşır? Girdiyiniz yerdə də qalın. Hökumət birtəhər sabitliyi qoruyur, sizin qayğınıza qalır, zəhmət çəkin, xarabanızda oturun. Əfəl şeylərsiniz. Quymaq yeyib dişi qırılan, burun qurdalayıb göz çıxaran sanki başqalarıymış... Havadan yazmıram ki? İki-üç gün qabaq fövqəladə halları çağırmışdılar, vedrənin içində qalmış uşağı çıxarırdılar. Gör ünlü bəstəkarımızın vaxtını nə cür boş işlərlə alırlar. Rəhmətliyin uşağı, vedrədə qalmaq nə deməkdir?! Hökumət üzük verir, barmaqlarından çıxara bilmirlər. Uşaqlarına vedrə-vedrə yemək paylayır, bu dəfə vedrədən çıxa bilmirlər.

Məncə, uşaqpulu buna görə verilmir. Uşaqpulu alsalar nəlbəkidə boğulanlar çoxalacaq.

---



# İranı sülhə məcburetmə əməliyyatı, yoxsa... - kritik həftə

## ABŞ-ın zərbələri Tehranın nüvə silahı proqramını ölümcül şəkildə geri atdı; müharibə tezliklə bitəcəkmi - rəy

**İsrailin istəyi reallaşdı. Ötən bazar ABŞ İranın nüvə silahı yaradılmasında çox mühüm sayılan üç nüvə obyektini 6 "bunker bomba" ilə vurdu.**

Xəbər verildiyi kimi, az sonra prezident Donald Tramp Yaxın Şərqdəki gərginlik fonunda İrana qarşı ciddi xəbərdarlıqla çıxış edib. İranın nüvə obyektlərinin məhv edilməsindən sonra Tramp bildirib ki, Tehran ya sülh yolunu seçməlidir, ya da onu daha dağıdıcı nəticələr gözləyir. "Ya bölgəyə sülh gələcək, ya da İran üçün çox daha ciddi bir faciə baş verəcək", - Ağ Ev başçısı vurğulayıb.

Onun sözlərinə görə, ABŞ Yaxın Şərqdəki eskalasiyanın davam etməsinə imkan verməyəcək və lazım gələrsə, Birləşmiş Ştatlar İran ərazisindəki strateji hədəfləri "cəmi bir neçə dəqiqə içində" məhv etməyə hazırdır.

İran tərəfi isə cavab tədbirləri görmək haqqını özündə saxladığını bildirib. Eyni zamanda Fordo və digər yeraltı zavodlardan nüvə materiallarının zərbədən iki gün öncə çıxarıldığı iddia olunur.

İran Silahlı Qüvvələrinin baş komandanı general Əmir Hatəmi dünən bəyan edib ki, ABŞ-ın İranın nüvə obyektlərinə endirdiyi zərbələrə cavab olaraq "qətiyyətli reaksiya" göstərəcəklər. Hatəmi bu açıqlamanı İran İslam Respublikasının yüksək rütbəli hərbi zabitləri ilə keçirdiyi iclas zamanı səsləndirib. "Amerikalılar hər dəfə cinayət törədəndə, onlar bizim qətiyyətli cavabımızla qarşılaşıblar. Bu dəfə də istisna olmayacaq," - deyə general bildirib.

General Hatəminin bu bəyanatı ABŞ-la İran arasında artan gərginlik fonunda səsləndirilib və regionda müharibə ehtimalının daha da gücləndiyi ehtimal olunur.

ABŞ-ın zərbələri Tehranın nüvə silahı proqramını nə dərəcədə geri atacaq? Dağılan yeraltı zavodun inşası nə qədər vaxt ala bilər? Doğrudanmı zənginləşmiş uran vaxtından əvvəl bombalanan yeraltı zavoddan çıxarılıb? ABŞ, İsrail bundan xəbərsiz ola bilərdimi? Nəhayət, bu həftə savaşın bitməsi mümkünmü?

**Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** hesab edir ki, İran regionda baş verən qarşıdurmada faktiki olaraq artıq məğlub olub və bu mərhələdən sonra əsas məsələ Tehranın beynəlxalq miqyasda üzünü necə qoruyacağı ilə bağlıdır. Tofiq Zülfüqarova görə, İranın hava hücumundan müdafiə sistemi iflic vəziyyətinə düşüb və hazırda hərbi üstünlük tam şəkildə İsrailin tərəfindədir. Onun fikrincə, bu vəziyyət İran üçün həm siyasi, həm də təhlükəsizlik baxımından ciddi nəticələr doğuracaq.

Bu arada İran parlamenti Hörmüz boğazının bağlanması ilə bağlı qərar qəbul edib. Qeyd olunub ki, qərarı İranın Milli Təhlükəsizlik Şurası təsdiqləməlidir. Təsdiqləyəcəkmi? Maraqlıdır ki, İranda keçirilən son rəy sorğusuna görə, əhalinin 66%-i nüvə silahı əldə etməyə tərəfdar olduğunu bildirib. Belə çıxır, əksəriyyət müharibə istəyir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili bildirib ki, Hörmüz Boğazı Fars körfəzi ilə Hind Okeanını birləşdirən mühüm bir yerdir. Hər gün bu boğaz vasitəsilə dünya bazarına orta hesabla 20 milyon barel neft ixrac olunur, bu qlobal neft istehlakının 1/3-i deməkdir. Bu boğaz bağlanarsa, o zaman neftin qiyməti sıçrayışla artacaqdır. Bu isə dünya iqtisadiyyatına ciddi zərbə vura bilər.

Siyasi ekspertlər hesab edir ki, Hörmüz boğazını bağlamaq üçün İran 55 km.lik sahəyə mina döşəməlidir. Dünyada satılan neftin 20 faizi bu boğazdan keçir. Hazırda neftin qiyməti 10 faiz qalxaraq 77 dollar olub. Hörmüz boğazı bağlansa, neftin qiymətində sıçrayış qeydə alına bilər.

İran uranın dinc məqsədlərlə zənginləşdirilməsindən imtina etməyəcəyini bəyan edib.

Belə vəziyyətdə Tehran sülhə məcbur ediləcəkmi?

**Siyasi ekspert Aydın Quliyev "Yeni Müsavat"a bildirdi ki, indiki şəraitdə İranın nüvə silahına sahib olmağa qədər gəlib çıxması mümkünsüz görünür:** "Bəlkə də Fordo zavodu vurulana qədər bu haqda ehtimal etmək olardı ki, İran gizli şəkildə və daha sürətli hərəkət etməklə nə vaxtsa nüvə silahını yaratmağa gəlib çata bilər. Amma bu gün Fordonun ağır bombardmançı təyyarələrlə vurulduğu faktı ortadadırsa, İranın bundan sonra nüvə silahı əldə edə biləcəyi mümkünsüzdür. Çünki harada nüvə silahının istehsalı ilə bağlı azacıq bir əlamət hiss eləsələr yəqin ki, dərhal həmin yerləri də vuracaqlar və vurmaq üçün əldə təcrübə var. Ən uzağı, İranın dinc nüvə enerjisinə sahiblənmək hüququ tanınacaq. Lakin bu da çox ciddi beynəlxalq nəzarət altında olacaq. İranın dinc nüvə enerjisi texnologiyasına sahiblənmə hüququnun tanınması əslində asan proses olmayacaq. Çünki burada İranı narahat eləyən və onun təbirincə desək, dövlət heysiyyəti və şərəfinə toxunan bir şey var. Bu da uranın kənarda zənginləşdirilərək İrana təhvil verilməsidir. Buna da İran yaxın durmaq istəmir. Bütün hallarda, əlbəttə, bu qədər qırğın-qiyamətdən sonra İranın dinc nüvə enerjisinə sahiblənmək hüququ gec-tez tanınacaq və tanınmalıdır. Fordo zavodunun vurulması olduqca mürəkkəb və çoxşaxəli məsələdir. Bütün hallarda İranın zənginləşdirilmiş uranının Fordodan çıxarılması əvvəlcədən ABŞ-a da, İsrailə də yəqin ki, bəlli idi. Çünki burada incə bir məqam və sehrli çevrə var. Əgər Tramp həmin zavodda nüvə zənginləşdirilmiş uranın olduğunu bilsəydi, güman ki, ABŞ oraya belə bir zərbə endirməzdi. Ona görə ki, vurulan zərbələrin təsiri altında bütün bölgənin və İranın radiasiyaya uğrayacağını yəqin göz önünə alırdılar. Amma belə cəsarətlə və qəfildən Fordoya zərbəni endirdilərsə, deməli, öncədən məlumat var idi ki, artıq orada uran yoxdur. İran hesablaya bilməzdi ki, uranın Fordoda saxlanması böyük təhlükədir. Əgər orada uran qalmış olsaydı, oraya zərbə endirilməzdi".

**A.Quliyev qeyd etdi ki, bundan sonra bu müharibənin gedişatı ilə bağlı proqnoz vermək çox çətindir:** "Burada hər şey İranın, İsrailin, ABŞ-ın nə dərəcədə inadkar davranacağından və nə dərəcədə kompromisə meylli olacağından asılıdır. Hadisələr isə göstərir ki, heç kim güzəştə getmək fikrində deyil. İran rəhbərliyi nəyin bahasına olur-olsun nüvə texnologiyasına sahiblənmək haqqını sona qədər müdafiə edəcəyini bəyan edir. Amerika və İsrail bunun üçün İrana heç bir halda imkan verilməyəcəyini deyir. Buna görə də bu müharibədə tezliklə sülh əldə olunması ehtimalı çox azdır. Biz tezliklə sülh olmasını istərdik. Amma bu məsələ bizim əlimizdə deyil. Proses hələ uzun müddət davam edəcək".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

# Putindən postsovet ölkələrinə hədə - Bakıdan reaksiya

## Kreml liderinin "Rus əsgərinin ayaq basdığı bütün ərazilər Rusiyanındır" sözləri təhlükəli revanşizmdir

**Rusiya Prezidenti Vladimir Putin Peterburq Beynəlxalq İqtisadi Forumunda çıxışı ilə təkcə iqtisadi gündəmi yox, siyasi mənzərəni də silkələdi. Rusiya lideri çıxışı zamanı tarixin tozlu arxivlərindən çıxarılmış imperialist tezisləri səhnəyə daşıdı: "Rus əsgərinin ayaq basdığı bütün ərazilər Rusiyanındır. Ruslar və ukraynalılar eyni xalqdır. Bu mənada bütün Ukrayna bizimdir".**

Bu sözlər artıq sadəcə ritorika deyil. Bu, beynəlxalq hüququn, dövlət sərhədlərinin, xalqların suverenliyinin üstündən xətt çəkən açıq imperialist manifestdir.

Putinin çıxışı onu göstərir ki, Kreml hələ də SSRİ-nin dağılması ilə barışmayıb. İllərdir "rus dünyası" ideyası ilə ideoloji zəmin hazırlayan Moskva bu gün artıq bu siyasəti açıq şəkildə hərbi və siyasi ritorikaya çevirib. Yeni dünya nizamında "köhnə xəyal" yenidən baş qaldırıb.

Ukraynaya hücum bu planın ilk mərhələsi idi. Və artıq heç kim şübhə etmir ki, növbədə kimlərin olduğu Kreml divarları arxasında deyil, Putinin dilindədir.

Belarus Kreml tərəfindən faktiki udulub. Qazaxıstan siyasi və informasiya hücumları altındadır. Moldova Dnestryanı bufer ərazisi kimi saxlanılır. Baltikyanı ölkələr daim "rusdilli əhali" bəhanəsi ilə təhdid olunur. Gürcüstan Abxaziya və Cənubi Osetiya ilə "açıq yara" vəziyyətindədir. Putin öz "ayaq izi doktrinası" ilə bu ərazilərə açıq iddia ortaya qoyur.

**Rusiya prezidentinin bu açıqlamasına ilk sərt cavab təbii ki, Ukraynadan gəldi. Prezident Volodimir Zelenski bəyan etdi:** "Putin rus əsgərlərinin ayaqları haqda danışarkən Belarusu, Baltikyanı ölkələri, Moldovanı, Qafqazı, Qazaxıstanı da nəzərdə tutur. Onun üçün rus qatillərinin əli çatan hər yer onlarınkıdır".

Zelenskinin bu çıxışı təkcə Ukraynanın cavabı deyil, postsovet ölkələrinə ünvanlanan xəbərdarlıqdır. Kreml yalnız sərhədləri yox, dövlətlərin mənəviyyat və tarixi yaddaş sərhədlərini də silməyə çalışır.

Rusiyanın davranışları 19-cu əsr imperiyalarının "gücə əsaslanan hüququ"nu xatırladır. Diplomatiya, beynəlxalq hüquq, müqavilələr - bunların heç biri Moskvanın "rus əsgərinin ayağı" arqumentindən daha üstün tutulmur.

Bu, sadəcə, imperializm deyil. Bu, təhlükəli revanşizmdir. Rusiya 20-ci əsrin əvvəllərində itirdiklərini XXI əsrin ortasında güclə qaytarmaq istəyir.

Amma dünya artıq dəyişib. İndi ölkələr öz ərazilərini təkcə silahla deyil, siyasi iradə və beynəlxalq həmrəyliklə qoruyurlar.

Rusiyanın necə təhlükəli qonşu olduğunu Kreml sahibi son açıqlamasıyla ortaya qoyub. "Belə bir qədim qayda var. Rus əsgərinin ayağının dəydiyi yer bizimdir" - deyən Rusiya Prezidenti Vladimir Putin cümləsini bu şəkildə genişləndirib: "Rus əsgərinin ayaq basdığı bütün ərazilər Rusiyanındır. Rus və ukraynalılar eyni xalqdır. Bu mənada bütün Ukrayna bizimdir". Görəsən, Vladimir Putinin bu açıqlamasına Ermənistanın baş naziri Nikol Paşinyanın reaksiyası necə olar? Çünki



Kreml sahibinin məntiqindən çıxış etsək, Rusiyanın Ermənistanda hərbi bazası olduğuna görə bu ölkə Rusiyaya məxsusdur.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Rusiyanın necə təhlükəli qonşu olduğunu Kreml sahibi son açıqlaması ilə ortaya qoyub:** "Putinin məntiqindən çıxış etsək, Rusiyanın Ermənistanda hərbi bazası olduğuna görə bu ölkə Rusiyaya məxsusdur. Rusiyanın Tacikistanda da hərbi bazası var, bu ölkə də Rusiyaya məxsusdur? Bu, imperialist açıqlamadır. Rusiya Prezidenti bu cür məntiqsiz açıqlamalarıyla həm Ukraynaya qarşı müharibəyə haqq qazandırır, həm də qonşu ölkələrə xəbərdarlıq mesajı göndərir. Putin deyir ki, rus və ukraynalılar eyni xalqdır. Rus və ukraynalılar necə eyni xalqdır ki, 4 ildən çoxdur bir-birlərini öldürürlər. Putin həm imperialist, həm də ziddiyyətli açıqlamalar verir. O, belə açıqlamalarla Rusiyanın gücünü şişirdir. Rusiya elə böyük gücə sahib olsaydı, müharibə 4 il uzanmazdı. Qısa müddətdə hədəfinə çatardı. Ukrayna öz bütövlüyü uğrunda direniş göstərir. Putin isə bunu əsaslandırmaq üçün əsassız açıqlamalar səsləndirir. Rusiya Gürcüstana qarşı müharibə edib, Çeçenistanla iki dəfə müharibəsi olub, lakin bəzi hədəflərinə çətinliklə nail olub. Ona görə də Putin bu gücü son dərəcə şişirdir. Ukrayna cəbhəsində Rusiyanın gündəlik itkiləri 1000 nəfəri keçir. Bu, Rusiya üçün böyük rəqəmdir. İşçi qüvvəsini və gənc nəsli itirir. Bunun mənfi təsiri özünü 20-30 il sonra büruzə verəcək".

**Analitik qeyd etdi ki, SSRİ Rusiyadan daha güclü dövlət idi, amma dağıldı:** "Putin sinəsinə çox döyməsin, Rusiyada bir gün mərkəzdən qaçma meyilləri güclənə bilər".

**Politoloq bildirdi ki, Rusiyada yaşayan müxtəlif millətlərin müharibə fonunda narazılıqları artır:** "Rusiyada kiçik millətləri Ukrayna ilə müharibədə ölümə göndərirlər. İnquşlar Rusiyada yaşayan azsaylı xalqdır. İnquşetiyada müharibədən sonra qəbiristanlıqların sayı artıb. Ağsaqqallar Putinə müraciət edərək bildirirlər ki, xalq olaraq yox ola bilərlər. Çünki gənc nəsil müharibədə ölür. Bu, təkcə inquşlara aid deyil, Rusiyanın özündə də müharibə nəticəsində qəbiristanlıqların sayı artıb. Rusiya hakim dairələri imperiya həvəsi ilə yaşaya bilər, amma bunu reallaşdırmaq mümkün deyil. Ona görə də sivil dünya Rusiyanın Ukraynanı işğal etməsinin əleyhinədir. Rusiyanın müharibədə məğlub olmasını istəyir ki, Ukrayna ərazi bütövlüyünü təmin etsin. Çünki rusiya ukraynanı işğal etsə, gözünü strateji tərəfdaş adlandırdığı Qazaxıstana, Cənubi Qafqaza gözünü dikəcək".

**E.Şahinoğlu vurğuladı ki, Azərbaycan zamanında rus hərbçilərini ölkəmizdən çıxarmaqla mümkün təhlükəni aradan qaldırdı:** "Nə yaxşı ki, hazırda Azərbaycanda rus əsgəri yoxdur".

**❑ Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"**

# Kremldən İrəvana şok təhdid: ya biz, ya da...

## Ermənistan Avropa İttifaqı ilə Avrasiya İqtisadi İttifaqı dilemması arasında qalıb; İrəvan iki yoldan hansını seçəcək?

**Ermənistanın Avropa İttifaqına (Aİ) üzvlüyü məsələsi gündəmə gəldikdən bu yana Moskvadan İrəvana təhdidlər artıb. Rusiya xüsusilə əsas gətirir ki, Ermənistan Avrasiya İqtisadi İttifaqının (AİI) üzvü olduğu üçün Aİ-yə üzvlüyü mümkün deyil.**

Bu qəbil təhdidlər son vaxtlar intensivləşib. Ötən həftə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi mətbuat konfransında deyib ki, İrəvanın AİI və Aİ-yə üzvlüyünün uyğunsuzluğu ilə bağlı bəyanatlarda realizm inkar edilə bilməz. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk isə "Vedomosti"yə müsahibəsində bildirib ki, Ermənistanın Aİ ilə yaxınlaşma kursu artıq ölkə iqtisadiyyatına ziyan vurur. Onun sözlərinə görə, nəzərə almaq lazımdır ki, Aİ ilə yaxınlaşma istər-istəməz Rusiya və Ermənistan arasında münasibətlərə mənfi təsirə gətirib çıxaracaq.

Ermənistanın baş nazirinin müavini Mher Qriqoryan "Sputnik Ermənistan"a mövzu ilə bağlı müsahibəsində deyib ki, Ermənistan AİI-dən çıxmaq və ola bilsin ki, başqa inteqrasiya birliyinə qoşulmaq barədə yalnız risklər və nəticələrin hərtərəfli qiymətləndirilməsindən sonra düşünə biləcək. Qriqoryan əlavə edib ki, kimin nə qazanıb, nə itirəcəyi barədə danışmaq hələ tezdir.



Qeyd edək ki, bu il aprelin 4-də Ermənistan Prezidenti Vaaqn Xaçaturyan "Ermənistan Respublikasının Avropa İttifaqına daxil olması prosesinin başlanması haqqında" Qanunu imzalayıb. Bundan sonra ölkə hökuməti bəyan edib ki, AİI-dən çıxmaq məsələsi onun gündəmində deyil.

Rusiyadan Ermənistana artan təzyiqlər İrəvanın Aİ yolunda irəliləmək prosesini dayandıracaqmı? Paşinyan hazırkı reallığı qiymətləndirərək AİI-dən çıxmağı ertələyirmi? Rusiya ilə İranın düşdüyü vəziyyət Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlı qalması fonunda Ermənistanı hansı addımlara vadar edə bilər?

**"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirib ki, Ermənistan çox ciddi suallar və ağır seçim qarşısındadır:** "Bir tərəfdən inteqrasiya yolunu seçib və Avropa İttifaqına üzvlük prosesini başlama haqqında qanun qəbul edib, digər tərəfdən, Rusiya və Avrasiya İqtisadi İttifaqından ciddi asılılıq mövcuddur. Ermənistan iki yoldan birini seçməlidir: ya Avropa İttifaqı, ya Avrasiya İqtisadi Birliyi. Çünki bunların hər ikisinə üzvlük qeyri-mümkündür və bunu həm Nikol Paşinyan, həm parlamentin sədri dəfələrlə bəyan edib. Ancaq mümkün qədər prosesi uzatmağa çalışırlar. Anlayırlar ki, Avropa İttifaqına üzvlük qısa müddətdə baş tutacaq məsələ deyil. Gözlərinin qarşısında Türkiyə nümunəsi var. 30 ildir Türkiyəni Aİ-nin qapısı ağzında saxlayıblar və hələ bir 30 il də qəbul olunma ehtimalı görünmür".

**Eyni zamanda Səmədov hesab edir ki, Aİ Ukraynanı, Moldovanı namizəd elan etsə də, üzvlüyə qəbul etməyə tələsmir:** "Bu proses də kifayət qədər uzana bilər. O səbəbdən Ermənistan ümid edir ki, hələlik Avropaya inteqrasiya xəttini götürsün və Aİ-yə üzv olandan sonra AİB-dən çıxmaq məsələsi qoyulsun. Amma buna Rusiya imkan verərmi? Ermənistanın xarici ticarət dövriyyəsinin 40 faizdən çoxu Rusiyanın payına düşür. Aİ ilə ticarət həcmi Rusiya ilə müqayisədə təqribən 6 dəfə azdır. Bu şəraitdə Ermənistanın AİB-dən çıxması ona çox ağır problemlər yarada bilər. Belə bir addımı atmağın qeyri-mümkün olduğunu Ermənistan hakimiyyəti başa düşür".

**Siyasi ekspert onu da qeyd edib ki, ABŞ-ın yeni hakimiyyətinin yeritdiyi Ukraynanın arxasından çəkilmək və Rusiyaya yaxınlaşmaq siyasəti də İrəvanı ehtiyatlı davranmağa vadar edir:** "Bayden hakimiyyəti dövründə Ermənistanla imzalanan strateji tərəfdaşlıq haqqında sənəd bu gün İrəvana problemlər yaratmaqdadır. Bu şəraitdə Ermənistanın konkret bir yol seçmək imkanı yoxdur. Ermənistan yalnız mümkün qədər bu prosesləri uzatmağa çalışır. Sözün əsl mənasında çırpınır. Nikol Paşinyanın Türkiyə səfəri də bu vəziyyətdən çıxmaq yollarını axtarmağa xidmət edən səfər idi. Ona açıq şəkildə dedilər ki, Azərbaycanla münasibətlər nizama salınmasa, sərhədlərin açılması, diplomatik münasibətlərin qurulması qeyri-mümkündür. Rusiya isə yeni bir fiqur atıb Ermənistan siyasi meydanına. Onun gələcəkdə Ermənistanın lideri olması üçün cəhdlər bundan sonra da özünü göstərəcək. Eyni zamanda erməni Apostol kilsəsi də həmin fiquru müdafiə edir. Yəni bu gün 2026-cı il seçkilərinə hazırlıq başlayıb. Əks həmlə kimi Paşinyan da Samvel Karapetyanın həbs olunması prosesinə start verib. Məqsədinə nail ola biləcəkmi? Sonuna qədər Karapetyanı siyasətdən uzaqlaşdırmağı bacaracaqmı? Karapetyanın dəstəklədiyi yeni namizədin qəfildən ortaya çıxması da istisna olunmur. Ermənistanda bir ildən sonra keçiriləcək parlament seçkilərinə qədər Paşinyan hökumətinin Aİ ilə AİB arasında seçim etmək imkanı yoxdur. Vəziyyət bu cür davam edəcək. Rusiya Aİ məsələsi ilə bağlı narazılığını bildirəcək, ancaq kəskin addım atmayacaq. Çətin seçim qarşısında bu gün Ermənistanın qəti addım atması qeyri-mümkündür".

**❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

# Xamneyinin varisi dəqiqləşir - rejimin taleyi isə...

## İran siyasi elitasında narahatlıq artır, gizli müzakirələrdə yeni dövrə hazırlıqlar gedir - ekspertin gözləntisi

***"İranın ali dini lideri Ayətullah Əli Xamneyi yeraltı bunkerdə gizlənir və sui-qəsd cəhdindən qorxur". Bu barədə "The New York Times" (NYT) üç İran mənbəsinə istinadən yazıb.***

Nəşrə görə, 86 yaşlı Xamneyi artıq üç mümkün varis də seçib və ali rəhbərin təyin edilməsinə cavabdeh qurum sayılan ekspertlər məclisinə fövqəladə vəziyyətdə onlardan birini tez bir zamanda təsdiq etməyi tapşırıb. NYT həmçinin bildirir ki, Xamneyi birbaşa məhdud əlaqələrə malikdir və komandirlərlə əsasən etibarlı köməkçisi vasitəsilə əlaqə saxlayır. "O, yalnız ən etibarlı bir nəfər vasitəsilə hərbi komandirlərlə əlaqə saxlayır. Çevriliş baş verəcəyi təqdirdə Rusiyaya qaçmaq üçün hazırlıqlara başlayıb", - məlumatda qeyd olunub.

Nəşrin məlumatına görə, Xamneyi yüksək rütbəli komandirlər öldürülərsə, onların yerini tuta biləcək şəxsləri əvvəlcədən təyin edib ki, hərbi komandanlıqda ardıcıllıq pozulmasın.

Maraqlıdır ki, mümkün xələflər siyahısında Xamneyinin oğlu, əvvəllər favoritlərdən hesab edilən Müctəba yoxdur. NYT qeyd edir ki, Müctəbanın SEPAH-a yaxınlığına və ruhani rütbəsinə baxmayaraq, onun namizədliyi ayətullahın özü tərəfindən siyahıdan çıxarılıb.

**Yaxın Şərq üzrə ekspert, politoloq Vüqar Zifəroğlu** "Yeni Müsavat"a açıqlamasında Xamneyinin varisinin kim olacağı, İran-İsrail savaşının bu məsələni tezləşdirmə ehtimalı və digər məsələləri şərh edib.

**V.Zifəroğlunun fikrincə, ali dini liderlik məsələsi İranın gələcəyində və regional balansda kritik rol oynayır**: "İran-İsrail müharibəsi bu məsələni tezləşdirə bilər, amma hazırda hərbi və siyasi elitanın içində sistem sabitliyini qorumaq naminə daha təcrübəli, SEPAH-a yaxın fiqurların irəli çəkiləcəyi gözlənilir. İranın növbəti ali dini liderinin kim olacağı barədə müxtəlif fikirlər səsləndirilsə də, bu barədə dəqiq ad söyləmək çətindir. Qərar Xobreqan Məclisi (Ekspertlər Şurası) tərəfindən veriləcək. Lakin bəzi adlar kuluar səviyyəsində önə çıxır. Ən çox ehtimal olunan namizədlər sırasında bir neçə ad daha çox müzakirə olunmaqdadır.

Məsələn, Ayətullah Sadeq Amoli Laricani ekspertlər şurasının üzvü və keçmiş ədliyyə rəhbəridir. Ali rəhbərliyə ideoloji yaxınlığı və siyasi təcrübəsi var. Laricanini maraqlı edən məqam onun Nəcəfdə anadan olmasıdır. Xatırlatmaq istərdim ki, Nəcəf və Qum arasında tarixi rəqabət də mövcuddur. Bu isə Nəcəf şiə məktəbinin də İrana daha loyal davranmasına səbəb ola bilər. Eyni zamanda Ayətullah Ali Xatəmi və ya Ayətullah Əlvi Qərəfi namizəd olaraq adları hallandırılanlar sırasındadır. Hər ikisi dini nüfuza sahib, lakin siyasi cəhətdən neytral fiqurlar hesab olunurlar.

İbrahim Rəisinin vertolyot qəzasında həlak olmasından sonra real namizəd olaraq Müctəba Xamneyinin də adı vurğulanırdı. O, Ayətullah Xamneyinin oğlu olmaqla yanaşı, siyasi və dini dairələrdə, əsasən mühafizəkar və hərbi qanadda nüfuzlu şəxs hesab edilsə də, atası tərəfindən siyahıdan çıxarılması onun irs yolu ilə liderlik perspektivini zəiflədib. Nəzərə almaq lazımdır ki, 1979-cu il inqilabından sonra sistemin əsas ideya istiqamətindən biri məhz monarxiya idarəetməsinə qarşı çıxmaq olub. Bu mənada Xamneyinin oğlunu namizəd kimi göstərməsi indiyədək şah rejiminə qarşı aparılan siyasi təbliğata qarşı getmək mənasını ifadə edə bilərdi. Bu isə sistemin özündə də birmənalı qarşılanmayacaq, etirazlara səbəb olacaqdı".



**V.Zifəroğlu hesab edir ki, İran-İsrail qarşıdurmasının dərinləşməsi iki səbəbdən varis məsələsini aktuallaşdıra bilər:** "Xamneyinin yaşı, səhhəti və ya fövqəladə vəziyyət bunun üçün ciddi səbəbdir. Müharibə şəraitində ali rəhbərin qəfil vəfatı, hakimiyyət boşluğu yarada bilər. Nəzərə almaq lazımdır ki, İranın mövcud elitası üçün sistemli davamlılıq zərurəti şərtdir. SEPAH və teokratik sistem öncədən ardıcıllıq planını sürətləndirmək məcburiyyətində qala bilər ki, sistem çöküş riskinə düşməsin. Müharibə və böhran şəraitində İran daxilində sabitlik, təhlükəsizlik və SEPAH-a bağlılıq əsas meyarlar olur. Bu mənada, SEPAH-a yaxın və sərt xətt tərəfdarlarının (məsələn, Laricani və ya hərbi-dini kadrlar) şansı artır. Və ya Müctəba Xamneyi hərbi dairələrlə yaxınlığı səbəbi ilə, əgər siyasi qərar dəyişərsə, sürpriz namizəd ola bilər. Amma yuxarıda da qeyd etdiyim kimi, hazırda sistem daxilində bu istiqamətdə ciddi müqavimət var".

**Politoloq dini lider dəyişikliyinin İrana və bölgəyə təsirlərini şərh edərkən bildirdi ki, sözügedən dəyişiklik ehtimalının İrana təsirləri ilə bağlı iki ssenarini nəzərdən keçirmək olar:** "Əgər sərt xətçi varis gələrsə, daxildə idarəetmə daha da sərtləşəcək. Eyni zamanda Qərblə dialoqda bu, müəyyən sərt ritorikanın getməsinə təkan verəcək. Təzyiq aləti kimi İran ətrafında formalaşdırdığı, lakin son iki ildə kifayət qədər zəifləmiş "müqavimət oxu" adlandırdığı proksi-qüvvələri yenidən dirçəltməyə, mümkündür ki, hətta genişləndirməyə cəhd göstərsin. Nisbətən islahatçı və ya mülayim lider təyin olunarsa, bu, Qərblə dialoqa öz müsbət təsirini göstərə, İran daxilində isə gərginlik azala bilər, lakin mühafizəkar və hərbi elitanın müqaviməti arta bilər. Dəyişikliyin bölgəyə də təsiri ola bilər".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# Hansı Paşinyan?

**Lap əvvəlcə deyim ki, siyasətdə səmimiyyətdən - filandan daha çox başqa meyarlardan danışırlar. Siyasətə tətbiqən səmimiyyətdən çox "hesablaşmaq" sözü daha uğurlu səslənir: real siyasətçi, bəli, hansısa siyasi avantürist, "yüyəni" başqa siyasi mərkəzlərin əlində olan (bunlara yaxşı halda "təsir agentləri" deyirlər) marionet siyasətçi yox, sözün müsbət mənasında reallıqları görən siyasətçi emosiyalarından yuxarıda dayanaraq münasibətlər qurur və qərarlar qəbul edir.**

**Hüseynbala SƏLİMOV**



Əlbəttə, bu, siyasət adamının həmişə reallıqların müti əsiri olması anlamına da gəlmir. Yox, o, bəzən ölkəsi və milləti üçün daha cəlbedici və məqbul dividendlər də əldə etməyə çalışır, amma hətta bunu da realist kimi, bəli, siyasi avantürist kimi yox, məhz real siyasətçi kimi reallıqlar çərçivəsində etməyə səy edir.

Bunları ona görə deyirik ki, tez-tez belə söhbətlər eşidirsən ki, bəs Paşinyan səmimidirmi, onun səmimiyyətinə inanmaq olarmı? Bir daha deyirik ki, siyasət adamları əksər hallarda bu cür hisslərdən uzaqda durmağa çalışırlar, hətta daha çox siyasətçi ən yaxşı halda özünün yaxın ətrafı ilə səmimi ola bilir.

Söhbət Paşinyandan gedirsə, İkinci Qarabağ savaşından əvvəlki, Xankəndidə yallı gedən bir siyasət adamını da görmüşük. Amma o, ya İkinci Qarabağ savaşına qədər özünün hisslərini vətəndaşlarına, xüsusən də separatçılara deyə bilmədiyindən (o vaxt onlar "qalib" idilər, bütün Dağlıq Qarabağ onların nəzarətində idi), yaxud ikinci savaş onun üçün "soyuq duş" olduğundan və ya İkinci Qarabağ savaşı onun özünü, elə bütün ermənləri də avantürst erməni millətçilərinin girovluğundan qurtardığından bu adam neçə ildir xalqına tamam başqa hisslər aşılamağa cəhd edir: onları revanşizmə çağırmır, Azərbaycana və türklərə qarşı növbəti müharibəyə səsləmir, əksinə, imkan düşdükcə, onlara deyir ki, xalq olaraq miflərlə yox, reallıqlarla yaşamalıyıq, qonşu Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməliyik, onlardan Ermənistana qarşı hansısa təhlükə gözləməməliyik!..

Şəxsən mənim fikrimcə, Paşinyan əvvəlcədən də belə fərqli fikirlərdə olub, sadəcə, erməni avantürüst-millətçilərinin, separatçıların üstün mövqelərə malik olduğu vaxt o, bunları desəydi, ona ən yaxşı halda dəli kimi baxar və qolundan tutub bayıra atardılar.

Baxın, adam deyir ki, biz heç nə itirməmişik, əksinə, Ermənistan Respublikasını qazanmışıq, çünki Dağlıq Qarabağ avantürasının ən əsas missiyası bu idi ki, Ermənistan müstəqil olmasın!..

İnanın, o, ilk erməni lideridir ki, bu sözləri deyir. On illərlə təxminən eyni sözləri bizim siyasət adamları, hətta qonşu Gürcüstanın prezidenti, hazırda həbsdə olan M.Saakaşvili də BMT-nin tribunasından deyirdi.

Bəli, onda söylənilirdi ki, ay ermənilər, Kreml Qarabağı nə sizə verəndir, nə də azərbaycanlılara, Dağlıq Qarabağ Moskvaya ona görə lazımdır ki, Bakını və İrəvanı bildiyi kimi idarə etsin, onların heç birini müstəqil olmağa qoymasın!..

Amma ermənilərin avantürst liderləri bunun fərqində deyildilər, Kreml nə çalırdı, onu da oynayırdılar.

Nə yaxşı ki, Azərbaycan və Türkiyə prezidentləri, bizim şanlı Azərbaycan Ordumuz Kremlin də, avantürist erməni "siyasətçi"lərinin də bu ssenarisini onların əlindən aldı! Təsadüfi deyil, indi təkcə erməni avantüristləri yox, Kreml də özünün Qafqazdakı ən əsas "nçaqlar"ından birini itirdiyinə görə möhkəmcə dilxordurlar...

Odur, bir daha deyirik ki, "Siyasətdə səmimiyyət olur, yoxsa olmur? Filanskəsin səmimiyyətinə inanaq, ya inanmayaq?" kimi fəlsəfi-estetik - etik suallar üzərində baş sındırmaq gərəksiz məşğuliyyətdir. Biz daim yeni-yeni reallıqlar yaratmalıyıq, Bakı da, qardaş Ankara da daim daha güclü olmağın yollarını axtarmalıdırlar ki, bizimlə hesablaşsınlar - hətta bizi sevməyənlər, bizimlə səmimi olmayanlar da.

Həm də insafən demək lazımdır ki, Paşinyan tək özü yox, komanda üzvləri də cəhd edir. O gün baxıram, xarici işlər naziri A.Mirzoyan deyir ki, hamını, xüsusən də region dövlətlərini özümüzə düşmən edə bilmirik.

İmkan düşdükcə Ermənistan parlamentinin sədri A.Simonyan da nəsə etməyə və deməyə çalışır. Hamısı da bilirsinizmi niyə? Onlar bizim güc sahibi, regionda əsas faktor olduğumuzu görürlər.

Bəli, məhz buna görə daha hansısa bir "səmimiyyət"ə görə yox, bizimlə, qardaş Ankara ilə əməkdaşlığa can atır və ləng şəkildə olsa da anlamağa başlayırlar ki, Moskvanın qoltuğunun altından çıxmağın, əsl müstəqil dövlət olmağın yolu yalnız bundan keçir.

Əlbəttə, Levon Ter-Petrosyandan Serj Sərkisyana qədər bütün erməni "liderlər"lə dialoq qurmağa cəhd olunmuşdu, onların hamısı ən müxtəlif vaxtlarda Türkiyədə səfərlərdə - tədbirlərdə olmuşdular.

Amma bu psevdo-liderlərin heç biri Kremlin cızdığı (həm də özlərinin türklərə qarşı heyvani nifrətləri ucbatından!) dairədən kənara çıxmadı.

Ötən həftə Paşinyan da ikinci dəfə Türkiyəyə yollandı. Deyəsən, bu dəfə də ciddi bir nəticə olmadı, hərçənd müəyyən gözləntilər vardı.

Olsun. Bu, siyasətdir, hər şey elə də asan alınmır. Əsas odur ki, cidd-cəhdlər davam etsin. Bu gün olmaz, sabah olar! Vacibi budur, biz daha da güclü olaq. Ermənilər anlasın ki, bizimlə əməkdaşlıq etməkdən savayı yol görünmür - bəli, bizimlə hesablaş-

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

**Gəncə şəhərində qida zəhərlənməsi hadisəsi baş verib. Zəhərlənən şəxslər - 1981-ci il təvəllüdlü Zaur Cəfərov və 1990-cı il təvəllüdlü Qədir Kazımov - dərhal xəstəxanaya yerləşdirilib. Onlara ilkin tibbi yardım göstərilib və hazırda hər iki şəxsin vəziyyətinin qənaətbəxş olduğu bildirilir. İlkin ehtimallara əsasən, zəhərlənməyə qəbul edilən qida məhsulları səbəb olub.**

# SOS! Yayda bu qìdaları yeməyìn, zəhərləyìr - həkìmdən çağırış

## Mütəxəssislər deyir ki, zəhərlənmələrin səbəbi sistemsizlik və məsuliyyətsizlikdir



Qeyd edək ki, yay aylarında temperaturun artması ilə qida zəhərlənmələrinin sayı da yüksəlir. Mütəxəssislər əhaliyə qidalanmada xüsusilə diqqətli olmağı tövsiyə edir. İsti havada ərzaqların tez xarab olması, birbaşa günəş şüalarının altında saxlanılan qidaların tərkibində baş verən dəyişikliklər zəhərlənməyə əsas yaradır. Kütləvi mərasimlər isə bu mənada bir qədər də təhlükəlidir. Qidaların, yeməklərin böyük həcmdə hazırlanması, axşam bişirilmiş yeməyin günorta yeyilməsi zəhərlənmə üçün şərait yaradır.

“Şərq” qəzeti yazır ki, rusiyalı mütəxəssis Yelena Spetsenko Lenta.ru-ya müsahibəsində isti havalarda sağlamlıq üçün ən təhlükəli qida məhsullarını sadalayıb. Onun sözlərinə görə, yüksək temperatur bakteriyaların çoxalması üçün ideal şərait yaradır və bəzi məhsullar xüsusilə təhlükəli hala gəlir: “Tərkibində zülal olan və tez xarab olan məhsullar ilk növbədə risk altındadır. İsti havada mal və quş əti daha təhlükəlidir, xüsusilə də düzgün şəkildə saxlanmayıbsa. Bir neçə saat Günəş altında qalan bişmiş kabab salmonella və ya bağırsaq çöpü (E. coli bakteriyaları) mənbəyinə çevrilə bilər. Eyni şey hazır ət məhsullarına - kolbasa, paştet, kotletlərə də aiddir. İstidə süd məhsulları da eyni şəkildə təhlükəlidir. Kəsmik, xama, qatıq və yumşaq pendirlər patogen mikroorqanizmlərin çoxalması üçün əlverişli mühit yaradır. Hətta istifadə müddəti hələ başa çatmamış olsa belə, düzgün saxlanmadıqda, bu məhsullar ciddi həzm pozğunluqlarına səbəb ola bilər. Qaymaq əsaslı desertlər xüsusilə təhlükəlidir. Onlar demək olar ki, hiss edilmədən xarab olur. Lakin onlardan istifadə çox ciddi nəticələrə gətirib çıxara bilər”.

Yayda qidalanma zamanı daha nələrə diqqət etməliyik? Xüsusən də uşaqlar üçün hansı qidalar zəhərlənmə riski yarada bilər?

**Tanınmış həkim-diyetoloq, diyetlə bağlı kitabların müəllifi, uzunömürlülük üzrə ekspert Leyla Zülfüqarlı mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini bölüşüb:** “Belə bir mif var idi ki, yay aylarında balıq yemək olmaz. Bu, təkcə ayın adında "r" hərfinin olub-olmaması ilə bağlı deyil. Yayda havalar çox isti keçir, bu da balıq kimi tez xarab olan məhsulların saxlanmasını çətinləşdirir. Balıq - kəskin zülal mənbəyi olmaqla yanaşı - salmonella və bağırsaq çöpləri kimi bakteriyalara tez yoluxdura bilər. Buna görə də insanlar yay mövsümündə daha diqqətli olmalıdırlar.

Xüsusilə çimərlik mövsümündə kolbasa məhsullarını çimərliyə aparmaq və uşaqlara yedirtmək təhlükəlidir. Təsadüfi deyil ki, yay aylarında bağırsaq çöpləri daha çox yayılır. Bu bakteriyalar uşaq bağçaları və oyun meydançaları kimi uşaqların sıx olduğu yerlərdə daha sürətlə yayılır. Çünki hər hansı bir qidanın saxlanması zamanı ona bakteriya düşübsə, bu, bir uşaqdan digərinə asanlıqla keçə bilir və nəticədə kütləvi yayılma müşahidə olunur.

Yay aylarında giləmeyvə, tərəvəz və zülal tərkibli məhsullardan istifadə edərkən ehtiyatlı olmaq lazımdır. Bu məhsullar mütləq soyuducuda saxlanmalıdır. Açıq şəkildə tövsiyə olunur ki, insanlar özləri ilə çimərliyə yemək aparmasınlar. Uşaqlar əllərini yumadan çimərlikdə qarpız və ya başqa qidalar qəbul etdikdə, bu da bakteriyaların yayılmasına səbəb ola bilər".

**İstehlakçıların Hüquqlarının müdafiəçisi Eyyub Hüseynov da yay aylarında artan qida zəhərlənmələri ilə bağlı ciddi xəbərdarlıq edib. Onun sözlərinə görə, ölkədə bu sahədə statistika və nəzarət mexanizmləri ciddi problemlərlə üzləşir:** “Azərbaycanda qida zəhərlənmələrinin rəsmi statistikası reallığı əks etdirmir. Əldə etdiyimiz məlumatlara görə, ölkəmizdə bu halların qeydə alınması çox zəif aparılır və təqdim edilən rəqəmlər beynəlxalq standartlarla müqayisədə onlarla, bəzən yüzlərlə dəfə az göstərilir. Eyni şəkildə zəhərlənmədən baş verən ölüm halları da düzgün sənədləşdirilmir”.

**Ekspert hesab edir ki, mövcud vəziyyətin əsas səbəblərindən biri sistemsizlikdir. Onun fikrincə, həm məhsullara keyfiyyət sertifikatı verən qurum, həm də zəhərlənmələri qeydə alan orqan eyni olmamalıdır:** “Bu sahədə ciddi maraq toqquşması və nəzarətsizlik müşahidə olunur”.

**Eyyub Hüseynov yay aylarında zəhərlənmə riskinin daha da artdığını deyib:** “İsti havalarda məhsullar sürətlə xarab olur. Təəssüf ki, bəzi istehlakçılar təhlükəli məhsullarla necə davranmalı olduqlarını bilmirlər, bu da vəziyyəti daha da ağırlaşdırır”.

**AİB sədri bildirib ki, problemin kökündə normativ sənədlər dayanır:** “Qanunvericilikdə boşluqlar çoxdur. Hökumətin istehlakçını qoruma siyasəti demək olar ki, mövcud deyil. Daha çox biznesin maraqları ön plandadır. Bu səbəbdən Qida Təhlükəsizliyi Agentliyinin əsasnaməsinə dəyişiklik edilməli, daha çevik nəzarət və məhsulların dərhal geri çağırılması kimi mexanizmlər tətbiq olunmalıdır.”

**Ekspert son vaxtlar rayonlarda toy mərasimlərində müşahidə olunan zəhərlənmə hallarına da diqqət çəkib:** “Bölgələrdə insanlar toy üçün zal kirayələyib, məhsulları özləri gətirir və bişirirlər. Nəzarət isə formal şəkildə aparılır. Əslində qaydaya görə AQTA əməkdaşları toy başlamazdan əvvəl məhsullardan nümunə götürməlidir. Ancaq çox vaxt bu prosedura da əməl olunmur, bəzən toy sahibi özü nümunələri aparıb təsdiq alır, amma bu, qidaların əksəriyyətini əhatə etmir. Bu da zəhərlənmə hallarının yaranmasına zəmin yaradır”.

Qeyd edək ki, uşaqların immun sistemi hələ tam formalaşmadığı üçün onlarda qida zəhərlənməsi daha tez-tez və daha ağır baş verir. Pediatrlar tövsiyə edir ki, uşaqlara çöldən alınmış dondurma, mayonezli salatlar və qaynar havada saxlanan konservləşdirilmiş qidalar verilməsin. Səhər yeməyi vacibdir, amma bu yemək yüngül və zülal əsaslı olmalıdır: məsələn, qaynadılmış yumurta, qatıq, pendir və banan. İsti havalarda qazlı və şirin içkilər əvəzinə evdə hazırlanmış kompot və ya sərin su verilməlidir.

İnfeksion xəstəliklərin, xüsusən bağırsaq infeksiyalarının yayda daha çox yayılması müşahidə olunur. İnfeksionistlər xəbərdarlıq edir ki, əl gigiyenası qida qədər önəmlidir - çöldən gəldikdən, tualetdən sonra və yeməkdən öncə mütləq sabunla əllər yuyulmalıdır. Açıq havada satılan dönər, toyuq və kolbasa məhsulları zəhərlənmə riski daşıyır - yalnız lisenziyalı və etibarlı yerlərdən alınmalıdır. Çirkli su ilə yuyulan meyvələr hepatit A və digər virusların daşıyıcısı ola bilər.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

# Azərbaycanda şok: qayınana gəlininin yumurtalarını satırmış!



**“Azərbaycanfa "follikul donoru" alveri açıq bazardır. Nə qanundan çəkinirlər, nə də məsuliyyətdən. İnsanlar nəyi, kimi satdıqlarının fərqində deyillər". Musavat.com bildirir ki, bu barədə sosioloq Lalə Mehralı deyib. O, sosial media hesabında yazır:**

“Follikul donorluğu ilə bağlı yazımı oxuyan bir tanışım zəng etmişdi bir müddət əvvəl. Məktəbi bitirən kimi ərə veriblər bu qızı, evləndikdən sonra övladı olmur. Qızı hər ay müalicə adı ilə xəstəxanaya aparan qayınanası, sən demə, follikullarını satırmış gəlininin. Tanışım deyir məni 10-15 dəqiqəlik yatırdırdılar, elə bilirdim sonsuzluğa görə müalicə edirlər. Onu inandırıblar ki, problem səndədir, uşaq ona görə olmur. 10-15 il əvvəldən danışıram. O zaman 18 yaşında olan, uzaq bir kənddən şəhərə gəlin köçmüş qız haradan ağlına gətirə bilərdi ki onun yumurtalarını oğurlayırlar? O, yumurta, follikul nədir, heç bilmirmiş də.

Bu proses uzun müddət davam edib, ta ki qız ciddi hormonal problemlər yaşayanadək. Follikul yetişdirmək üçün o qədər hormon iynələri vurublar ki, qarnında, kürəyində qalın, qara tüklər çıxmağa başlayıb, çənəsində, üzündə saqqal çıxıb. Qonşusu olan bir qadın ona iynələrdən olduğunu deyib, getməməyi məsləhət görüb. Sonralar ərindən zorakılıq gördüyünə görə ayrılıb, keçmiş əri yenidən evlənib, yenə övladı olmayıb. O zaman anlayıb özünün sonsuz olmadığını.

Mənim o yazım qabağına çıxıb, mənə ona görə zəng edib ki, onun başına gələnlərlə eynidir yazıda yazılanlar. Deyir mənə də eyni şey ediblər, dedim niyə şikayət etmirsən, sənin övladların var indi bilmədiyin ailələrdə. Deyir, keçmiş qayınanam da, follikulu hər ay götürən həkim də ölüb, kimdən şikayət edəcəm? Qayınanası həmin həkimin yanında tibb bacısı işləyirmiş. Adını demədi həkimin, sadəcə, dedi ki, bir neçə il əvvəl faciəvi şəkildə öldü qadın. Son illərdə faciəvi şəkildə ölən çox qadın həkim var ölkədə, Allah bilir hansıdır".

**Sosioloq xatırladıb ki, Azərbaycanda follikul və sperm donorluğu ilə bağlı ayrıca qanun yoxdur:** "“İnsan orqan və toxumalarının donorluğu haqqında” Qanunda göstərilir ki, insan orqanlarının və toxumalarının alğı-satqısı yolverilməzdir. Ödəniş müqabilində hər hansı genetik materialın (o cümlədən follikulun) verilməsi qanunsuz sayılır və cinayət məsuliyyəti yarada bilər. Qanun follikul və sperma donorluğuna yalnız bir dəfə və yalnız könüllü olarsa icazə verir.

Milli Məclisdə bu məsələ qaldırılmalıdır. Amma mən bu günədək bu vəziyyətdən narahat olan bircə deputatın adını görmüşəm mətbuatda - Fazil Mustafa. Başqa bir deputatın bu haqda nə bir açıqlamasına, nə bir çıxışına, nə rəyinə rast gəlmişəm. O biri tərəfdə isə kişilər və qadınlar öz yumurta və hüceyrələrini, yəni öz uşaqlarını satırlar-700-800 manata!"

❑ **Xalidə GƏRAY, Musavat.com**

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Azərbaycanın Avropa İttifaqındakı bir nömrəli dostu

## İki ölkənin strateji tərəfdaşlığında liderlərin dostluğu xüsusi rol oynayır



**Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə ikitərəfli əməkdaşlıq münasibətlərinə daha çox üstünlük verir. Nəinki Avropa İttifaqı ilə münasibətlərə. Ölkəmizin ən yaxın dostluq münasibətində olduğu Avropa İttifaqı ölkələri sırasında Macarıstan birinci yeri tutur desək yanılmarıq. Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətlərində Macarıstanla əməkdaşlıq xüsusi yer tutur, iki ölkə arasında əlaqələr daim yüksələn xətlə inkişaf edir. Bu gün Azərbaycanla Macarıstan arasında dostluq və əməkdaşlıq münasibətləri, tarixən Azərbaycan və macar xalqları arasında dərin köklərə malik sıx əlaqələr hər iki ölkənin rəhbərlərinin səyləri ilə yüksək səviyyədədir.**

Qeyd edək ki, iki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. 2004-cü ildə Azərbaycanın Macarıstanda, 2009-cu ildə isə Macarıstanın ölkəmizdə səfirliyi təsis olunub. Dost ölkələrimiz arasında parlamentlərarası münasibətlər də yüksək səviyyədə inkişaf edir. Milli Məclisdə Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Bu vaxtadək iki ölkə arasında imzalanan onlarla sənəd hüquqi bazanın möhkəmlənməsində mühüm rol oynayır. Əlaqələrimizin inkişafında 2014-cü ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə mühüm əhəmiyyət daşıyır. Azərbaycan-Macarıstan əməkdaşlığı 2023-cü ildə imzalanan Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ilə daha da möhkəmlənib.

Azərbaycan-Macarıstan əlaqələri çoxtərəfli platformada, xüsusilə BMT, ATƏT, NATO, Avropa İttifaqı, "Şərq Tərəfdaşlığı" Proqramı, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində uğurla inkişaf etdirilir. Azərbaycan və Macarıstan geniş iqtisadi potensiala malik ölkələrdir. İki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər iqtisadi əməkdaşlığın daha da genişlənməsində əhəmiyyətli rol oynayır.

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a şərhində bildirib ki, Azərbaycan və Macarıstan arasında əməkdaşlığın inkişafında şəxsiyyət amili, ölkə rəhbərlərinin münasibəti, qarşılıqlı səfərləri də mühüm rol oynayır: "Dövlət başçımız İlham Əliyevin Macarıstana 6, baş nazir Viktor Orbanın isə Azərbaycana 7 səfəri zamanı münasibətlərin hüquq-müqavilə əsasını möhkəmləndirən və inkişaf yollarını müəyyənləşdirən sənədlər imzalanıb. Hər iki ölkə etibarlı strateji tərəfdaşdır.

Macarıstanın Türk Dövlətləri Təşkilatı ilə sıx əlaqələrinin qurulmasında Azərbaycan-Macarıstan dostluq münasibətləri xüsusi rol oynayıb. Azərbaycan-Macarıstan tərəfdaşlığının daha böyük perpektivlərə yol açacağı barədə verilən proqnozlar davamlı olaraq gerçəkləşir. Bu yaxınlarda Macarıstanda Türk Dövlətləri Təşkilatının Zirvə toplantısının keçirilməsini də bu qəbildən dəyərləndirmək olar. Tarixdə ilk dəfəydi ki,Türk Dövlətləri Təşkilatının Zirvə toplantısı Macarıstanda keçirilirdi. Macarıstan TDT-nin tamhüquqlu üzvü olmasa da müşahidəçi ölkədir. Lakin yaxın gələcəkdə Azərbaycanın da dəstəyi ilə TDT-nin tam hüquqlu üzvü ola bilər".

**Ekspert qeyd edbi ki, Azərbaycan-Macarıstan ikitərəfli gündəliyi kifayət qədər genişdir. Energetika sahəsində uğurlu əməkdaşlıq edirik:** "Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində - "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında pay sahibidir. Gələn ilin əvvəlində növbəti kontrakt imzalanacağı açıqlanıb. Azərbaycanın qurudakı neft yataqlarında Macarıstan şirkəti fəaliyyətə başlayacaq. Biz keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlamışıq. Azərbaycan Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilər. Azərbaycan eyni zamanda Macarıstanla yaşıl enerji üzrə fəal işlədiyini elan edib".

**M.Əsədullazadə hesab edir ki, Azərbaycanın Macarıstanla Avropa İttifaqı və NATO üzvü kimi münasibətləri genişləndirilmiş uzunmüddətli strateji tərəfdaşlıq səviyyəsinə uyğun yeni hədəflərə doğru gedir, həm də Türk Dövlətləri Təşkilatının hədəfləri kontekstində keyfiyyətcə tamamilə yeni məzmun kəsb etməyə başlayıb:** "Azərbaycanla Macarıstan arasında strateji tərəfdaşlıq əsasında formalaşan və yüksək siyasi dialoqla xarakterizə olunan münasibətlər iki ölkə arasında bütün istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üçün yaxşı zəmin yaradıb. Münasibətlər iki ölkə arasında mövcud olan "Genişləndirilmiş strateji tərəfdaşlıq münasibətləri haqqında Birgə Bəyannamə"yə uyğun surətdə demək olar bütün sahə və istiqamətləri əhatə etməyə başlayıb. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu kontekstində Azərbaycanla Macarıstan arasında enerji sahəsində əməkdalıq xüsusi yer tutur. Ölkələrimizin yaxın siyasi münasibətləri iqtisadi, elmi-texniki, mədəni və digər sahələr üzrə əlverişli zəmin, eləcə də strateji şirkətlər və biznes qurumları arasında da əməkdaşlıq üçün lazımi çərçivələr yaradır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA**

# İranın hesablamadığı ən böyük səhv

## Azərbaycanın içində şəbəkə qurmağa başı qarışan Tehran "fil qulağında yatıb", içinə sızan yəhudi kəşfiyyatından xəbərsiz olub



**İran təhlükəsizlik qüvvələri, demək olar ki, hər gün Tehranda və ölkənin digər şəhərlərində İsrailin kəşfiyyat xidməti MOSSAD-a işləyən əfqanları saxlayır. İsrail kəşfiyyatının anti-İran hərəkətlərində hətta "Taliban"ın kəşfiyyat xidmətlərinin də iştirakı ilə bağlı versiyalar var. Tehranda düşünülür ki, İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanlarının və nüvə alimlərinin bir gecədə həlak edilməsi ilə müşayiət olunan hücumlar MOSSAD-ın İran ərazisində əvvəlcədən yaratdığı geniş kəşfiyyat və təxribat şəbəkəsi olmadan mümkün olmazdı. Bu, artıq təsdiqlənmiş faktdır. Üstəlik, o da məlum olub ki, İsrail şəbəkəsinin əhəmiyyətli bir hissəsi Hindistandan olan təxribatçılarla yanaşı, son bir neçə ildə İslam respublikasının müxtəlif şəhərlərində məskunlaşmış əfqan miqrantlardan formalaşıb.**

Vəziyyətlə tanış olan mənbələrə görə, 28 əfqan agentdən ibarət qrup müharibənin ilk günlərində İran təhlükəsizlik qüvvələri tərəfindən Tehranda saxlanılıb. Bundan sonra demək olar ki, hər gün ölkənin müxtəlif şəhərlərində bir neçə əfqan kəşfiyyatçı və MOSSAD diversantı müəyyən edilərək yaxalanıb. İyunun 17-də İran universitetlərinin birində magistratura pilləsində təhsil alan və eyni zamanda MOSSAD-a casusluq edən əfqan tələbə Rey şəhərində tutulub.

İsrailin İrana hərbi hücumu İranın daxilində xarici kəşfiyyatın, xüsusən də İsrail kəşfiyyatının dərin kök atdığını ortaya çıxardı. Belə görünür ki, qonşu İranın başı uzun illər Azərbaycan Respublikasının içərisində müxtəlif adlar altında və müxtəlif formalarda kəşfiyyat, casus şəbəkəsi qurmağa qarışıb. Ona görə də öz içində İsrailin şəbəkələşdiyindən xəbərsiz olub. Belə olmasaydı, İsrailin dronlarını belə İranın paytaxtına qədər yerləşdirə bilməsi mümkün olmazdı.

**Siyasi şərhçi Əli Orucov** "Yeni Müsavat"a şərhində bildirdi ki, İranın öz daxilində təhlükəsizliyin qorunması və xüsusi xidmət orqanlarının fəaliyyətlərinin peşəkarlığı, ayıq-sayıqlığının yüksəldilməsi ilə məşğul olmaq əvəzinə, qonşularından, xüsusən də Azərbaycandan şübhələnməsi böyük səhv idi: "İsrailin İranın daxilində təkcə casus şəbəkəsi deyil, silah- sursat obyektləri yaratması İranın xüsusi xidmət və təhlükəsizlik orqanlarının nə qədər zəif olduğunu ortaya qoydu. İsrailin İrana qarşı həyata keçirdiyi hərbi əməliyyatın ilk saatlarında İranın ali hərbi komanda heyətinin və tanınmış nüvə alimlərinin, həmçinin strateji hədəflərin məhv edilməsi indiyədək görünməyən hadisədir".

**Ə.Orucov dedi ki, Tehranda ciddi mühafizə altında qorunan "Hizbullah" lideri Nəsrullahın İsrail tərəfindən yüksək dəqiqliklə qətlindən İran hakimiyyəti dərs götürməli və daxili təhlükəsizlik problemlərinin qayğısına qalmalı idi:** "İsraili yer üzündən siləcəyi ilə hədələyən İranın daxilində "mini İsrailin" mövcudluğundan xəbərsiz olması bəzi detallara üzərində düşünməyə vadar edir. İran xüsusi xidmət orqanları öz müttəfiqlərinin eyni qurumları ilə nədən informasiya mübadiləsi aparmayıb və koordinasiyalı işləyə bilməyib? Ola bilməz ki, İsrailin MOSSAD-ı İranda geniş şəbəkə qursun və rahat şəkildə işləsin, ancaq bundan heç bir dövlətin məlumatı olmasın. Yaxud da İsrailin hücumundan əvvəl İsraildən, onun təhlükəsizlik orqanlarından 10 minlərlə qiymətli məxfi məlumatları ələ keçirdiyini iddia edən və bunun geniş təbliğatını aparan İran ilk zərbədən özünü itirdi. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, regional ambisiyalı və bəzi başqa dövlətlərin sərhədlərini qoruyacağı vədi verən İranın özü öz təhlükəsizliyini qorumaq iqtidarında deyilmiş. Mən hesab edirəm ki, bu hələ son deyil. MOSSAD rəsmisinin "biz hamımız İrandayıq" deməsi təsadüf deyil".

**Siyasi ekspert vurğuladı ki, İrana qarşı tətbiq edilən beynəlxalq sanksiyalar onun təhlükəsizlik strukturlarının ən müasir texnologiya və avadanlıqlarla təmin edilməsini əlçatmaz edib:** "İran həm də buna görə İsrail kimi dövlətlə mübarizədə indiki vəziyyətə düşüb. Digər bir faktora da nəzər yetirmək lazımdır. Bu da İran cəmiyyətinin və vətəndaşlarının teokratik rejimə mənfi münasibətidir. Rejimə qarşı nifrət və qəzəb nəticə etibarı ilə İsrail xüsusi xidmət orqanlarının daxildə geniş əl-qol açmasına imkan yaradıb".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

# Azyaşlının molla ilə qaçması - qanunun və İslamın diktəsi

**Bir neçə gündür sosial şəbəkələrin Azərbaycan seqmenti Abşeronda 16 yaşlı qızın yaşadığı Aşağı Güzdək qəsəbəsinin mollasına evlənmək məqsədilə qoşulub qaçmasını müzakirə edir. Qəsəbə məscidinin imamı Turab Tahirov deyib ki, qızın ailəsi onun boşanmış olmasını qəbul etməyib: “Qızı bəyəndikdən sonra elçilərimi göndərmişəm. "Boşanmışa qız verməırik" deyərək, imtina ediblər".**



**Novella Cəfəroğlu:** “Qanunvericilikdə mollalar da erkən nikah hallarında birbaşa məsuliyyət daşıyırlar”



**Emil Rahiloğlu:** “Qızı qaçıraraq və ya ailənin xəbəri olmadan kəbin kəsilməsi İslamın prinsiplərinə ziddir”

**16 yaşlı qız isə imamla öz istəyi ilə getdiyini bildirib:** “Turab mənə çox dedi ki, "18 yaşın tamam olsun, sonra qaçaq". Mən dedim “gəl gedək”. Onsuz da 1 ay yarımdan sonra 17 yaşım tamam olacaq".

Qeyd edək ki, qız qaçırıldıqdan sonra onun ailəsi dərhal hüquq-mühafizə orqanlarına müraciət edib. Hazırda polis əməkdaşları tərəfindən araşdırma aparılır.

Yeni qız 18 yaşına çatmasa da, hər iki tərəf evlənməyə hazırlaşır. Bu halda qanun nə deyir? Azyaşlı qızın könüllü şəkildə qoşulub qaçmasından sonra molla cəzalana bilərmi, yoxsa cütlüyün etirafları fonunda həmin kişi məsuliyyətdən azad olur?

Bəs İslam dini, şəriət konkret halda nə deyir?

Qeyd edək ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, azyaşlı şəxslə nikah və ya nikaha bərabər tutulan münasibətlər qurmaq, həmin şəxsi evliliyə məcbur etmək, yaxud onunla könüllü şəkildə belə əlaqəyə girmək cinayət tərkibli əməl sayılır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, nikah yaşı 18-dir. Yalnız məhkəmənin qərarı ilə istisna hal kimi bu yaş maksimum 1 il azaldıla bilər. Bu halda da valideynlərin razılığı və əsaslandırılmış səbəblər tələb olunur.

Qız 18 yaşına çatmadığı üçün onun öz razılığı hüquqi qüvvəyə malik deyil. Yetkinlik yaşına çatmamış şəxslə, onun razılığı ilə olsa belə, hər hansı intim və ya evlilik niyyəti ilə yaxınlıq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 152-ci maddəsi ilə cəzalandırılır.

Din xadiminin məsuliyyəti daha ağırdır. Belə ki, hadisədə iştirak edən şəxs - məscid imamı dövlətin rəsmi şəkildə təyin etdiyi din xadimidir. Belə şəxslər eyni zamanda dövlət məmuruna bərabər ictimai statusa malikdir və onlardan gözlənilən davranış səviyyəsi daha yüksək olur. Bu baxımdan qeyd olunur ki, bu cür hallarda məsuliyyət yalnız cinayət müstəvisində deyil, həm də əxlaqi və institusional çərçivədə qiymətləndirilməlidir.

**Mövzu ilə bağlı hüquq müdafiəçisi və Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu “Yeni Müsavat”a danışıb:** “Qanunvericilikdə mollalar da erkən nikah hallarında birbaşa məsuliyyət daşıyırlar. Əgər onların fəaliyyət göstərdiyi bölgələrdə belə hallar baş verirsə, yalnız valideynlər deyil, polis, bələdiyyə, icra hakimiyyəti orqanları və din xadimləri də bu məsələdə cavabdeh hesab olunmalıdır. Mollaların bu cür evliliklərdə iştirak etməsi və ya onlara göz yumması qanun qarşısında məsuliyyət doğurur.

Qızın “öz istəyi” ilə getməsi isə vəziyyəti dəyişmir. Belə hallar xüsusilə kəndlərdə, qəsəbələrdə, bəzən hətta şəhər mühitində də müşahidə olunur - insanlar “qonşu nə deyər” düşüncəsi ilə susurlar və nəticədə bu cür faciəvi vəziyyətlər baş verir. Halbuki belə hadisələrdə hüquq-mühafizə orqanları dərhal müdaxilə etməli, bu cür şəxslər bir-iki dəfə ciddi şəkildə məsuliyyətə cəlb edilib həbs olunsalar, bəlkə də bundan sonra digərləri üçün dərs olar.

Təəssüf ki, bu hadisədə qızın ailəsinin də məsuliyyəti az deyil. Əgər qız doğrudan da zorla və ya aldatma yolu ilə qaçırılıbsa, valideynlər niyə israrla onu geri qaytarmağa çalışmır? Niyə bu qədər biganəlik nümayiş olunur?

Ümumilikdə isə bu, çox acınacaqlı və narahatedici haldır. 16 yaşlı yeniyetmə bir qız özündən 20 yaş böyük, boşanmış və uşaqlı bir kişiyə qoşulub qaçır. Cəmiyyət hara baxır? Məsul orqanlar nə işlə məşğuldur? Qonşular, qohumlar, ictimai nəzarət haradadır?

Bu kimi hadisələr göstərir ki, cəmiyyətimizdə ailə dəyərləri, böyük-kiçik yeri, mənəvi məsuliyyət hissi getdikcə arxa plana keçir".

**İlahiyyatçı Emil Rahiloğlu qeyd edib ki, İslam şəriətində “qız qaçırma” anlayışı mövcud deyil:** “Və bu cür davranışlar nə dini, nə də əxlaqi baxımdan qəbul edilmir. Əksinə, İslamda nikahın baş tutması üçün müəyyən əsas şərtlər və qaydalar mövcuddur ki, onların pozulması nikahın həm dini, həm də hüquqi baxımdan etibarsız sayılmasına səbəb olur.

Ən mühüm şərtlərdən biri valinin, yəni ata və ya qəyyumun razılığıdır. Qızın ailəsinin, xüsusilə də atasının icazəsi olmadan kəsilən kəbin etibarsız və batil sayılır. Bu, həm qızın hüquqlarının qorunması, həm də ailənin rolu və razılığının təmin edilməsi baxımından mühüm sayılır. Qızın razılığı vacib olsa da, valideynin razılığı olmadan, sadəcə, ikitərəfli razılaşma ilə bağlanan nikah dini baxımdan doğru hesab edilmir.

Beləliklə, qız qaçıraraq və ya ailənin xəbəri olmadan kəbin kəsilməsi, nəinki İslamın prinsiplərinə, həm də insan haqlarına və etik normalara ziddir. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, nikah yaşına çatmayan şəxslə evlənmək və ya qadını evlənməyə məcbur etmək, eləcə də onu qaçırmaq cinayət məsuliyyəti yaradır.

Ümumilikdə isə şəriət nikahının düzgün və halal sayılması üçün aşağıdakı əsas şərtlər vacibdir:

Tərəflərin razılığı - kişi və qadın könüllü şəkildə evliliyə razı olmalıdır;

Valinin icazəsi - xüsusilə də qızın atası və ya qəyyumunun razılığı;

Mehrin təyin olunması - qadına veriləcək hüquqi və maddi təminat;

Şahidlərin iştirakı - ən azı iki ədalətli müsəlman kişinin nikahda şahid olması.

Bütün bu şərtlərin pozulması nikahın şəriət baxımından batil olmasına, eləcə də cəmiyyət daxilində əxlaqi və hüquqi problemlərin yaranmasına səbəb ola bilər.

O ki qaldı bir din xadiminin, xüsusilə də axundun bu cür addım atmasına, bunu qəti şəkildə düzgün hesab etmir və olduqca mənfi qarşılayıram. Bildiyiniz kimi, ölkəmizdə axundlar dövlət tərəfindən rəsmi şəkildə təyin olunur. Yəni istənilən şəxs özbaşına gəlib axund ola bilməz - bu, rəsmi prosedurla həyata keçirilir və həmin şəxs faktiki olaraq dövlət məmuru statusu daşıyır. Belə olan halda, bu mövqedən sui-istifadə yolverilməzdir.

Hətta qızın özü “razıyam” desə belə, bu fakt hadisəni qanuniləşdirmir və əxlaqi baxımdan da qəbulolunmaz edir. Çünki burada söhbət yalnız şəxsi münasibətlərdən yox, həm də ictimai nümunə, dini nüfuz və hüquqi məsuliyyətdən gedir. Bu cür davranış nə dinə, nə də hüquqa uyğundur".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

## Bakıda film kimi dələduzluq olayı - təfərrüat



**Tanışlarına qarşı külli miqdarda dələduzluq etməkdə təqsirləndirilən şəxsin cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb. Məhkəmədə 133 min dolların bir gecədə kriptovalyuta bazarında batdığı məlum olub. Zərərçəkənlər onunla barışıb. Musavat.com xəbər verir ki, 1993-cü il təvəllüdlü Ayaz Bakı Ağır Cinayətlər Məhkəməsində hakim qarşısına çıxarılıb.**

İttihama görə, Ayaz “Paradise M” şirkətinin rəhbəri Rövşən adlı şəxsdən 30 min dollar alıb. Bunun qarşılığında adıçəkilən şirkəti tenderdə qalib edəcəyini deyib. Lakin bu vədinə əməl etməyib. Aldığı pulun sadəcə 5 min dollarını qaytarıb. Zərərçəkmiş Rövşənin şikayətindən sonra Ayaz dəymiş zərəri tam olaraq ödəyib. Buna görə də zərərçəkmiş şəxs ondan şiakyətçi deyil.

İstintaq materiallarında Ayazın daha iki nəfərə qarşı dələduzluq etdiyi də qeyd edilib. O, qardaşının tanışlarından aldığı pulları “ByBİT” Ticarət Platformasına mədaxil edib. Lakin ehtimal etdiyi kimi, valyuta dəyişilməyib və bu səbəbdən platformaya mədaxil edilmiş pullar batıb.

Həmin iki nəfərlə kriptovalyuta biznesi ilə məşğul olmağa razılaşıblar. Ayaz bildirib ki, həmin məbləğlərin adıçəkilən platformaya qoyulmasını sübut edən çıxarışlar da var.

**Ayaz deyib ki, kriptovalyuta ilə bağlı xidmətlər göstərməklə bağlı təhsili olub, “bitcoin”lə bağlı kurs keçib:** “Təxminən 5 ildir ki, "Trading"lə məşğul oluram. Həmin ərəfədə “bitcoin”in qiyməti azaldığından pul qazana bilmədik. Pul batan zaman bunun qarşısını almaq üçün öz şəxsi vəsaitimi də hesaba daxil etdim. Həmin məbləğ də batdı. Zərərə düşdükdə pulu çıxara bilmədim. Buna səbəb pulların hissə-hissə qoyulması idi. Bütöv halda daxil ediləcəyi təqdirdə dövriyyədən çıxarda bilərdim.

Emil və Həsənlə razılaşmaya əsasən 6 ay ərzində xeyir və zərərləri müzakirə etməyəcəkdik. “Bitcoin”in qiyməti 70 min dollardan 59 min dollar düşmüşdü. Belə olan halda çox gəlir əldə edəcəyimizi dedim. Bunu Həsən və Emilə deyəndə çox sevindilər. Razılığa əsasən “bitcoin”in qiyməti 45 min dollara qədər düşdükdə əməliyyatı dayandırmalı idik. Mənim hesablamalarıma görə qiymət bundan aşağı düşə bilməzdi. Onlara söz verdiyim gəliri verə biləcəyimi düşündüm. Emosiyalara qapıldım. Əməliyyatı dayandırmaq istədim, amma məbləği bağlamadım. Bir neçə dəfə əməliyyatlar etdiyim üçün pulu batırdım".

Ayaz ifadəsində bildirib ki, Həsən və Emilin hərəsindən 55 min və 45 min dollar olmaqla cəmi 100 min dollar pul alıb. Zərərçəkmişlər ifadələrində bildirib ki, Ayazla söhbət edən zaman sonuncu dəfə onlara hesabda olan pulun 107 min dollar olduğunu göstərib. Buna görə də onlar Ayaza inanıb. Sonra isə qeyd edilən məbləğ batıb.

Ayazın kriptovalyuta biznesi üçün açdığı hesabdan çıxarış zamanı həqiqətən də hesaba 133 min dollardan çox vəsaitin mədaxil edildiyi müəyyən edilib. Bu məbləğin 100 min dolları Həsən və Emilə, qalan hissəsi isə Ayazın özünə məxsus olub.

Zərərçəkmişlər ifadələrində bildiriblər ki, baş verən hadisədə Ayazın onları aldatmaq istədiyini düşünmürlər. Onların sözlərinə görə, Ayaz qoyulan məbləğin 6 ay ərzində 200 faiz gəlir verəcəyini deyib. Tərəflərin razılığına əsasən isə qoyulan məbləğin 30 faizi qədər riskə getməli imişlər. Yəni, aldıqları kriptovalyuta 30 faiz dəyər itirsə, qalan məbləğ çıxarılmalı imiş.

Təqsirləndirilən şəxsin, zərərçəkmişlər Emil və Həsənin ifadələri, həmçinin Ayazın kriptovalyuta biznesi üçün açdığı hesabdan çıxarışları məhkəmə sübut kimi qiymətləndirilib. Məhkəmə belə qənaətə gəlib ki, Ayazın onları aldatmaq niyyəti olmayıb və buna görə də onun əməlində cinayət tərkibi yoxdur.

Məhkəmə zərərçəkmişlərə onu da xatırladıb ki, Ayaza verilən məbləğin 30 faizində risk olacağına razılaşdıqları üçün qalan 70 faizi mülki qaydada məhkəmə yolu ilə tələb etmək hüquqları var.

Külli miqdarda dələduzluqda ittiham olunan Ayazın cinayət işindən Emil və Həsənlə bağlı olan epizodlar çıxarılıb. Birinci epizod üzrə zərərçəkmişdən alınmış 25 min dollar isə külli miqdar yox, xeyli miqdar kimi nəzərə alınıb. Buna görə də Ayaza qarşı xeyli miqdarda dələduzluq əməli tötərmək maddəsi ilə hökm çıxarılıb.

Məhkəmə Ayazın 25 min dollarlıq zərəri də ödəməsini nəzərə alaraq onun barəsində həbslə bağlı olmayan cəza təyin edib. Hökmə əsasən, Ayaza barəsində 3 il azadlığın məhdudlaşdırılması cəzası təyin edilib. Bu müddət ərzində Ayaz elektron qolbaq gəzdirməli, Bakını tərk etməməlidir.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

# Çinə “qanad açan” toyuqlarımız - Azərbaycanın qazancı

## Bu, bizim üçün yeni bazardır; ölkədə gündəlik 300-350 min ədəd toyuq kəsilir, onların ayaqları göndəriləcək

**Azərbaycan Çinə toyuq əti ixracına başlamağa hazırlaşır. Bu istiqamətdə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ilə Çinin Baş Gömrük Administrasiyası arasında müvafiq işlər görülməkdədir. Eyni zamanda Çinə həmin məhsulların ixracını həyata keçirmək istəyən quş əti istehsalçıları ilə görüş keçirilib və bu ölkənin idxal tələbləri barədə ətraflı məlumatlar verilib.**

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayevin dediyinə görə, artıq Azərbaycandan Çinə toyuq ayaqları məhsulunun idxalına icazə alınıb. O qeyd edib ki, məhsulların Çin bazarlarına idxalı üçün xüsusi icazələr lazımdır.

Xatırladaq ki, bu ilin martından Azərbaycandan ABŞ-a toyuq yumurtasının ixracına başlanıb. Rəsmi statistikaya əsasən, yanvar-aprel aylarında bu ölkəyə 1 milyon 458,51 min dollar dəyərində 15 milyon 810,84 min ədəd süfrə yumurtası ixrac olunub. Bundan əlavə, Birləşmiş Ərəb Əmirliklərinə 2 milyon 393,17 min dollar dəyərində 38 milyon 102,4 min ədəd, Syerra-Leoneyə 50,6 min dollar dəyərində 792 min ədəd yumurta ixracı qeydə alınıb.



**Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının İdarə Heyətinin sədri Mürvət Həsənlinin sözlərinə görə, quşçuluq ölkəmizdə ən dinamik inkişaf edən sahələrdəndir:** “Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan quşçuluq sektorunun inkişaf etdirilməsi cənab Prezident İlham Əliyevin daim diqqətindədir. Bu diqqət sayəsində quşçuluq təsərrüfatları damazlıq və süfrə yumurtası istehsalında ölkə tələbatını aşaraq, xarici ölkələrə ixraca və ölkəmizə xarici valyuta axınının təmin olunmasına töhfə verməyə başlayıblar.

Dünyada ən ucuz süfrə yumurtası satılan ölkələr arasında ilk beşlikdəyik. Toyuq əti ilə bağlı da regionda ən ucuz qiymətlərin olduğu ölkəyik. Keçən il süfrə yumurtası ixracımız 100 milyon ədədin üzərində olub. O dövrdə Rusiya və Yaxın Şərq ölkələrinə satış edirdik. Bu il isə Yaxın Şərq ölkələrinə və ABŞ-a yumurta ixrac etdik. Bu ilin ötən dövründə 30 milyondan çox yumurta ixrac etmişik. İl sonuna kimi də ixraca davam edəcək".

**Assosiasiya rəhbəri Çinə toyuq ayağı ixracımızdan da danışıb:** “Çinə təkcə toyuq ayağı deyil, gələcəkdə toyuq əti ixracımız üçün də sənədləşmə işləri aparırıq. Toyuq ayağı ixracı üçün Çin tərəfindən icazə verilib. Hazırda akkreditasiya işləri gedir. Yaxın bir-iki həftə ərzində sənədləşmə bitdikdən sonra ixraca başlayacağıq. Bu, bizim üçün yeni bazardır. Hazırda ölkəmizdə gündəlik 300-350 min ədəd toyuq kəsilir. Həmin toyuqların ayaqları göndəriləcək”.

Qeyd edək ki, Azərbaycanda toyuq əti istehlakı ildən-ilə artır. Dövlət Statistika Komitəsinin ərzaq balansı göstəricilərinə əsasən illik adambaşına toyu əti istehlakı 2015-ci ildəki 10,5 kiloqramdan 2023-cü ildə 16,4 kiloqrama qədər artıb. Müvafiq olaraq istehsal 97,2 min tondan 137,5 min tona yüksəlib. Bu məhsul üzrə ölkənin özünütəminetmə səviyyəsi 82 faiz civarındadır.

Rəsmi statistikaya əsasən, Azərbaycandan quş əti ixracı az miqdarda həmişə olub. Lakin 2022-ci ildə ixrac həcmi kəskin artıb. Həmin il 1477 ton, 2023-cü ildə isə 1053 ton quş əti ixracı qeydə alınıb.

Bu məhsulun idxalı 33-38 min ton arasında dəyişir. Bu ilin 4 ayında Azərbaycana 3 milyon 524,71 min dollar dəyərində 2056,13 ton bütöv dondurulmuş toyuq əti, 13 milyon 635,84 min dollar dəyərində 9082,77 ton hissələrə ayrılmış toyuq əti və əlavə məhsulları idxal olunub. Hər iki halda idxalda əsas pay Ukrayna, Rusiya və Belarusa məxsusdur.

Dörd ayda demək olar ki, hamısı Rusiyaya olmaqla 261,17 min dollar dəyərində 176,62 ton hissələrə ayrılmış toyuq əti və əlavə məhsulları ixrac olunub.

**M.Həsənli bildirir ki, təsərrüfatlar toyuq əti istehsalını da sürətlə artırırlar və tezliklə bu sahədə də ixraca nail olmağı hədəfləyirlər. Lakin bu sahədə qarşıda duran bəzi çətinliklər var:** “Bunlardan biri avadanlıqlarla bağlıdır. Hazırda quş əti istehsalçıları avadanlıq və texnologiyaların idxalının 40 faizinin dövlət tərəfindən subsidiyalaşdırılması mexanizmindən yararlana bilmirlər, çünki bu dəstək onlara şamil olunmur. Qlobal bazarlarda son illərdə gedən bahalaşma şəraitində quş əti istehsalçıları avadanlıq və texnologiyaları yeniləmək üçün tələb olunan yüksək məbləğli investisiya qoyuluşlarını özləri həyata keçirə bilmirlər. Xüsusilə də bu gün quşçuluq təsərrüfatları köhnə və yaxud ikinci, üçüncü əl işlədilmiş kəsim avadanlığı ilə işləyirlər. Ölkəmizin özünü tam şəkildə quş əti ilə təmin etməsi, ixracın təmin olunması üçün digər problemlərlə yanaşı bu problemin də həll olunması çox vacibdir. Yeni yetişdirilən quş mütləq sonucda kəsilərək istehlakçıya çatdırılmalıdır. Ancaq bu gün həm ölkəmizdə, həm digər ölkələrdə tələblər və normalar getdikcə yüksəldiyindən və dəyişdiyindən əldə olan texnologiya geri qalır və buna cavab vermir. Buna görə də biz kəsim avadanlıqlarının da dövlət subsidiyası mexanizminə daxil edilməsini xahiş etmişik”.

**Quşçuluq təsərrüfatlarının daha bir problemi ölkəmizdə elektrik təchizatı şəbəkələrinə qoşulma sahəsində tətbiq olunan yeni tariflərdən qaynaqlanır:** “Əvvəllər bütün kənd təsərrüfatı istehsalçılarına digər biznes sahələrindən fərqli qoşulma sistemi və tarifləri tətbiq olunurdu. Bu, digər biznes sahələri ilə müqayisədə daha aşağı rentabelli, həmçinin çoxsaylı risk faktorlarından asılı olan kənd təsərrüfatı istehsalçıları üçün mühüm güzəşt demək idi. Lakin ölkədə tətbiq olunan yeni qanunverici baza, ona müvafiq olaraq Azərbaycan Respublikası Tarif (Qiymət) Şurasının 2024-cü ilin 3 may tarixində qəbul etdiyi "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödəniş məbləğlərinin tənzimlənməsi barədə" qərar kənd təsərrüfatı istehsalçıları ilə digər biznes sahələri üçün eyni tariflər tətbiqini nəzərdə tutur. Yeni tariflərə əsasən 600 kVt-lıq bir transformatorun qoyulması üçün quşçuluq təsərrüfatının 102-175 min manat arası qoşulma haqqı ödəməsi tələb olunur. Bundan əlavə, quşçuluq təsərrüfatları elektrik şəbəkəsinə qoşulma üçün texniki şərt almağa 70-100 min manat arası rüsumu ödəməli olurlar. Bu, quşçuluq təsərrüfatları üçün çox böyük maliyyə yükü yaradır. Elektrik şəbəkəsinə qoşulmaq üçün ödəniləcək bu vəsait istehsal olunan məhsulun maya dəyərinə oturmaqla onu yüksəldir. Buna görə də kənd təsərrüfatı istehsalçılarının elektrik təchizatı şəbəkələrinə qoşulma tariflərinin digər biznes sahələrindən fərqləndirilməklə, daha aşağı tariflərin tətbiq olunması son dərəcə vacibdir”.

**Assosiasiya sədrinin sözlərinə görə, ölkəmizdə quş əti ilə təminatı yüz faizə qaldırmaq, ixraca hədəflənmək, həmçinin yerli bazarda toyuq əti və ərzaqlıq yumurtanın qiymətində artımın qarşısını almaq üçün müəssisələrin genişlənməsi, yeni istehsal texnologiyalarının tətbiqi vacib şərtdir:** “Bunun üçünsə torpaq sahələrinin əldə olunması və yaxud mövcud ərazilərdə yeni binaların tikintisi həyata keçirilməlidir. Sovet dövründən tikilən tikililər quşçuluqda istifadə olunan müasir texnologiyaların tətbiqinə imkan vermədiyinə görə müəssisələr onları sökərək yerində, yaxud müasir texnoloji tələblərə uyğun olaraq bir qədər başqa ərazidə yeni binalar tikmək istəyirlər. Çünki sovet dövründən tikilmiş inqubator stansiyaları, yem sexləri, kəsim sexləri və digər binalar yeni dövrün texnologiyasının tətbiqinə imkan vermir. Təsərrüfatlarda yenidənqurma işlərinin aparılması olduqca vacibdir. Lakin biz bunu edə bilmirik, çünki ölkəmizdə olan torpaqların əksəriyyəti kənd təsərrüfatı təyinatlıdır və iki kateqoriyaya aiddir: əkin və örüş. Əkin torpaqlarında əkinçilik, örüşdə isə mal-qaranın otarılması nəzərdə tutulur. Lakin real vəziyyət belədir ki, "kənd təsərrüfatı təyinatlı" adı altında qeydiyyata alınan torpaqların xeyli hissəsi nə əkin üçün, nə də örüş kimi istifadəyə yararlı deyil. Bir yabanı otun da bitmədiyi yararsız ərazilərimiz var ki, sənədlərdə kənd təsərrüfatı təyinatlı torpaq olduğu üçün həmin qayalıqda sahibkarlar bir toyuq hini də tikə bilmir. Ya da hansısa bir fermer köhnə fermasını söküb yerində modern ferma qura bilmir. Bu kimi hallar ölkənin ən iri quşçuluq təsərrüfatlarının inkişaf planlarına zərbə vurur. Həmin planların həyata keçirilməməsi Azərbaycanda toyuq ətinə artan tələbatın qarşılanmasında çətinliklərə və qiymət artımlarına yol aça bilər. Buna görə də hökumətdən biz quşçuluq təsərrüfatlarının istehsalı artırması üçün zəruri olan torpaq sahələrinin ayrılması prosesinin sürətləndirilməsi üçün addımların atılmasını xahiş etmişik".

**M.Həsənli bildirir ki, istehsalın genişləndirilməsi, daxili tələbatın tam təmin edilməsi üçün sahibkarlar öz üzərlərinə düşəni etməyə həmişə hazırdırlar:** “Azərbaycanda istehsal olunan yumurta, toyuq ətinin keyfiyyəti kifayət qədər yüksəkdir. Bizim məhsullarımızı əgər ABŞ-da, Körfəz ölkələrində rahatlıqla alırlarsa, demək, keyfiyyət göstəriciləri həmin ölkələrin tələblərinə uyğundur. Xüsusi qeyd edim ki, Körfəz ölkələri keyfiyyət, qida təhlükəsizliyi məsələlərinə çox yüksək önəm verirlər. Ora idxal olunan hər bir ərzaq məhsulu çox ciddi araşdırılır, yoxlanılır. ABŞ-da da həmçinin. Biz yumurtada olduğu kimi, ətdə də yüksək keyfiyyət standartlarına əməl edirik. Qeyd etdiyimiz məsələlər həllini taparsa, qısa müddətdə daxili tələbatdan da artıq həcmdə istehsalı təmin etmək, ixraca hədəflənmək mümkün olacaq”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 107 (8717) 24 iyun 2025

# Bakıya tramvay gələcəkmi - vaxt da daralır, yollar da...

## Paytaxtda bu infrastrukturun qurulması üçün nə az, nə çox, 5 il zaman var - mütəxəssis mövqeyi

**2025-2030-cu illəri əhatə edən dövlət proqramında Bakıda tramvay nəqliyyatının bərpası nəzərdə tutulur. Lakin mütəxəssislər və sakinlər bu ideyanın reallaşmasını hazırkı infrastruktur və yol sıxlığı səbəbindən çətin hesab edirlər.**

Bu mövzuya "Bakı-Xəbər" işıq salıb. Bildirilir ki, tramvay sisteminin yenidən qurulması şəhərdə ekoloji nəqliyyatın təşviqi və yol hərəkətindəki yüklənmənin azaldılması baxımından mühüm üstünlüklər vəd edir.

Xatırladaq ki, 1924-cü il fevralın 8-də Bakıda ilk dəfə tramvay xətti istifadəyə verilib. Paytaxtın sosial-iqtisadi həyatında olduqca mühüm yer tutmuş və şəhər sakinlərinin böyük marağına səbəb olmuş ilk tramvaylar "Azneft" meydanı ilə Bakı Dəmir Yolu Vağzalı arasında hərəkət edib. Tədricən isə tramvayların əhatə dairəsi xeyli genişlənib və onları əksər mərkəzi küçələrdə görmək mümkün olub. 2000-ci illərin əvvəllərində isə Bakı tramvayı tarixə çevrilib.

**Nəqliyyat sahəsi üzrə ekspert Adil Nəbiyev** "Yeni Müsavat"a vurğuladı ki, avtobus və velosiped zolaqları salındıqdan sonra paytaxt yollarında hərəkət çətinləşib. Ekspert bildirdi ki, tramvayların hərəkətini yalnız avtobus zolaqları ilə təmin etmək olar: "İndiki şəraitdə yeganə çıxış yolu bu ola bilər. Avtobus, velosiped və tramvay üçün ayrı-ayrı zolaqlar olsa, minik avtomobillərinin hərəkəti, ümumiyyətlə, mümkün olmayacaq. Digər tərəfdən, tramvaylar yaxşı işləsə, avtobusların bəzi küçələrdə hərəkətinə ehtiyac qalmaz. Tramvaylar işləsə, dayanma-durma ləğv olunmalıdır. Müasir tramvaylar daha sürətlidir. Məlum olduğu kimi, avtobus zolaqlarında hərəkət bir xətt üzrə davam etmir, zolaqdan-zolağa keçid olur, bundan başqa, şəhərin bəzi yerlərində minik avtomobillərini avtobus zolaqlarında saxlayırlar. Məsələn, Əhmədli ərazisində taksilər avtobus zolaqlarında dayanırlar, amma yeri gəlmişkən, cərimələnmirlər. İnşaatçılar prospektində isə avtobus zolaqlarına zibil qutuları qoyulub. Tramvaylar işə salınsa, zolaqdan çıxa bilmədikləri üçün heç bir neqativ hal olmaz. Nəzərə almaq lazımdır ki, minik avtomobilinin iştirakı ilə yol-nəqliyyat hadisəsi baş versə, tramvay sürücüsü günahkar olmur. Piyadalarla bağlı vəziyyət isə bir qədər fərqlidir. Bakıda tramvayların fəaliyyəti bərpa olunsa, piyadalar buna hazırlıqlı olmalıdırlar. Ümumiyyətlə, tramvay, trolleybus kimi relsli ictimai nəqliyyat növlərinin bərpa olunması yaxşı olar. Bu məsələ yəqin ki, öz həllini tapacaq".



Xatırladaq ki, bu ilin əvvəlində **"Nəqliyyat sahəsində 2024-cü ildə həyata keçirilən tədbirlər və 2025-ci il üçün planlar" barədə mətbuat konfransında rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümbətov** bildirmişdi ki, tramvay cari avtobuslardan fərqli olaraq kütləvi daşımalar üçün nəzərdə tutulur: "Bu gün Bakıda tramvay xəttinin inşasının faydalı ola biləcəyi ərazilər müəyyənləşdirilib. Ümumi baxsaq, şəhər mərkəzində insanların hərəkəti üçün ən səmərəli vasitə ilk növbədə metronu görürük. Prezidentin verdiyi tapşırığa uyğun olaraq metrostansiyaların yerləri və digər məsələlərlə bağlı planlar hazırlanıb. Bu istiqamətdə işlər gedir. İkinci məsələ insanların şəhər ətrafından mərkəzə və şəhər ətrafında hərəkətini təşkil etməkdir. Bu, həm də mövcud dəmir yolu xətləri ilə mümkündür. Dəmir yolu xətlərində sovet dövründə mövcud olmuş və hazırda müəyyən qədər modernizasiyasına ehtiyac olan hissələr var. Təkliflər ondan ibarətdir ki, onların da bərpa olunmasına ehtiyac var. Nəticədə həmin hissədə ehtiyac dəmir yolu vasitəsilə ödəniləcək. Metro stansiyaları ilə digər məntəqələr arasında avtobus daşımalarının daha effektiv olmasını düşünürük. Burada əlavə komponent tramvay xəttidir. Bizim metro və ya dəmir yolu imkanımızın olmadığı yerlərdə, məsələn, Mehdiabad istiqamətindən Azadlıq prospekti boyu Binəqədidən keçməklə 28 May istiqamətində tramvay xəttinin çəkilməsi effekt verə bilər. İkinci belə istiqamətlərdən biri son dövrlərdə əsas cazibə mərkəzlərindən birinə çevrilən "Seebreze" zonasıdır. Hansı ki, əsasən bu bölgədə yenidən salınan bir bölgə kimi tramvay xəttinin inşası effektiv ola bilər. Bu istiqamətlərdə də araşdırmalarımız davam edir. Məqsəd yalnız hansısa nəqliyyat növünün inşası yox, mövcud resurslarımızın ən effektiv istifadəsinə yönəlməkdir. Tramvay xəttinin çəkilməsi üçün zonalar müəyyənləşdirilir və bu istiqamətdə işlərimiz davam edir".

**Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov isə "Trend"ə müsahibəsində demişdi ki, Bakıda relssiz tramvay xətlərindən istifadə oluna bilər, lakin yeni relslər qurulmayacaq:** "Hazırda dünyada daha çox relssiz tramvay xətlərinə üstünlük verilir. Onun müxtəlif formaları mövcuddur, paytaxtda da onlardan istifadə oluna bilər. İctimai nəqliyyat, metro, dəmiryol xətlərinin sxemi qurulduqdan sonra müəyyən ərazilərdə nəqliyyatla bağlı problemlərin yenə də olacağını görürük. Bu ərazilər əhalinin ən sıx toplandığı yerlərdir. Biz həmin ərazilərdə əlavə ictimai nəqliyyat növü olaraq tramvay xətlərinin qurulmasını təklif edirik. Bu xətlər əhalinin piyada hərəkətinin aktiv olduğu, ticarət mərkəzlərinin çox olduğu, eyni zamanda yaşayış məntəqələrinin çox olduğu yerləri əhatə edəcək. Düşünürük ki, tramvay xətlərinin qurulması sözügedən yerlərdə nəqliyyat probleminin həllində əhəmiyyətli addım ola bilər".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**



# Tikinti şirkəti yolu kəsib, vətəndaş evinə vertolyotla gedə bilər

**Bakı İnzibati Məhkəməsində Azərbaycan vətəndaşı Cavid İsmayılovun timsalında minlərlə şəhər sakininin hüquqlarının necə tapdalanmasını, tikinti sektorunda özbaşınalığın nə dərəcədə təhlükəli həddə çatmasını ortaya qoyan proses keçirilib.**

Məhkəmə araşdırmalarında məlum olub ki, Bakı Şəhər İcra Hakimiyyəti "RR Construction" MMC-yə Yasamal rayonu ərazisindəki 4,32 hektar torpaq sahəsini icarəyə verib. Ayrılan torpaq sahəsi Cavid İsmayılovun mülkiyyətində olan mənzilin yerləşdiyi ərazini də əhatə edib. Nəticədə mənzil əhatəyə alınıb, həyət hasarlanıb, girişə mühafizəçi qoyulub. Vətəndaş evinə yalnız icazə ilə girə bilir! Cavid İsmayılovun evinə giriş demək olar ki, bloklanıb! Yaxşı ki, Bakı səmasında vertolyot uçuşlarına hələ rəsmi qadağa qoyulmayıb. Cavid İsmayılovun əlacı vertolyot icarəyə götürüb öz evinə damdan enməyədir. Çünki quru yolla evə girmək bir dərd, oradan çıxmaq iki dərddir.

Azərbaycan Konstitusiyası mülkiyyət hüququnu "toxunulmaz" elan edir. Amma Cavid İsmayılov faktiki olaraq öz torpağından istifadə hüququndan məhrum edilib. Mülkiyyətçi həyətinə icazəsiz girə bilmir! Bu nə deməkdir?

Cavid İsmayılov özü məhkəmə iclasında deyib ki, həyətinə keçmək üçün mühafizəçinin razılığı tələb olunur. "Mən öz evimə necə icazə alıb girə bilərəm?! Bu hansı məntiqdir?!" - deyə o şikayətlənib.

O, təəssüflə bildirib ki, məhəlləsində tikinti başlayandan sonra gündəlik həyatı zülm-zillətə dönüb. Tikinti səsləri, toz, nəqliyyat sıxlığı bir yana, adam evindən çıxıb həyətə düşmək üçün belə mühafizəçi ilə razılaşmalıdır. "Bəlkə vertolyot icarəyə götürüm, evimə göydən enim?" - deyə o ironiya edib.

Məhkəmə qərarına əsasən, sərəncam Cavid İsmayılovla bağlı hissədə ləğv olunub. Amma Bakı Şəhər İcra Hakimiyyəti qərardan apelyasiya şikayəti verə bilər. Yəni Cavid İsmayılovun vertolyotla evinə gedib-gəlmə perspektivi hələ də qalmaqdadır.

Məhkəmədə icra hakimiyyətinin mövqeyi isə qəribə də olsa belə səslənib ki: "Biz hələ tikintiyə icazə verməmişik. Sadəcə, torpaq icarəyə verilib". Maraqlıdır, bəs icarəyə verilmiş ərazi niyə hasarlanıb? Orada tikinti texnikası niyə peyda olub? Niyə Cavid İsmayılovun həyətinə girmək üçün mühafizəçinin razılığı tələb olunur?

Məhkəmə haqlı olaraq icra hakimiyyətinin "məntiqi"ni qəbul etməyib. Belə nəticəyə gəlib ki, icra hakimiyyətinin sərəncamı Cavid İsmayılovun konstitusion mülkiyyət hüquqlarını pozub. Odur ki, bu sərəncam onunla bağlı hissədə ləğv olunmalıdır.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** Musavat.com-a deyib ki, məmur özbaşınalığı, icra strukturlarının "torpaq kimindir" sualına məhəl qoymadan qərar çıxarması dəfələrlə vətəndaşları çıxılmaz vəziyyətə salıb: "Amma belə qərarlar nadir hallarda məhkəmədə ləğv edilir. Cavid İsmayılovun işi bu baxımdan presedent sayıla bilər. Mülkiyyətçi razılığı olmadan onun torpağına və mənzilinə müdaxilə hüquqi cəhətdən sıfır dəyərindədir. İstənilən tikinti şirkəti belə layihələrdə əvvəlcə mülkiyyətçi ilə razılaşmalı, sonra dövlət orqanlarına üz tutmalıdır".

**Natiq Ələsgərov deyib ki, Bakıda yüzlərlə bina sahibi bu aqibəti yaşayıb:** "Evinin qabağı hasarlanıb, pəncərəsinin qarşısına divar çəkilib, həyətinə texnika yığılıb... Məhkəmə bu işdə cəmiyyətə siqnal verdi ki, belə hallarda susmaq lazım deyil. Öz hüququnu müdafiə edənlər qalib gəlir".

Bu iş göstərdi ki, əgər vətəndaş susmur, məhkəməyə gedir, hüququnu tələb edirsə, dövlət məmuru da, tikinti maqnatı da geri çəkilməyə məcbur qalır. İcra hakimiyyətinin qərarı ləğv olunur!

Bəlkə bu qərardan sonra Bakı sakinləri öz həyətləri uğrunda daha inadla mübarizə aparacaq? Kim bilir, bəlkə Cavid İsmayılov kimi daha neçə adam "vertolyot variantı"ndan canını qurtaracaq?

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 107 (8717) 24 iyun 2025

iyun

# Kiloqramı min avro: dünyanın ən bahalı pendiri nədən hazırlanır?



**Pule pendiri dünyanın ən bahalı pendiridir, onun kiloqramı orta hesabla 1 000-1 300 avroya başa gəlir. Bu pendirin əsas özəlliyi ondan ibarətdir ki, o, dünyanın yalnız bir yerində, özü də inək südündən deyil, eşşək və keçi südündən hazırlanır.**

Oxu.Az xəbər verir ki, bu barədə "IFLScience" yazır. Pule pendirinin yüksək qiymətinin sirri onun istehsal prosesində və əsas tərkib hissəsindədir. Dünyanın ən bahalı bu pendirinin 60%-i Balkan eşşəyinin südü və 40%-i keçi südündən ibarətdir. Eşşəklər inəklərdən qat-qat az, gündə ən çox 2 litr süd verir. Eşşəklərin sağılması üçün xüsusi avadanlıq oxdur, buna görə də Serbiyadakı fermerlər Pule pendiri üçün südü çətinliklə əldə edirlər. 1 kq Pule pendiri hazırlamaq üçün 25 litr eşşək südü lazımdır.

Pule pendiri fermerlər tərəfindən yalnız Serbiyanın şimal-qərbində, Belqraddan 80 km aralıda yerləşən Zasavitsa adlı təbiət qoruğunda istehsal olunur. Bu pendir zərif, azca duzlu dada, həmçinin qaymaqlı tekstura malikdir. Pule pendiri omeqa-3 yağ turşuları, zülallar və kalsiumla zəngindir.

## Hazır qəhvə gizli təhlükə yarada bilər - xəbərdarlıq



**Hubey Universitetinin (Çin) alimləri müəyyən ediblər ki, hazır qəhvənin müntəzəm istehlakı qocalıqda görmə qabiliyyətinin pisləşməsi riskinin artması ilə əlaqələndirilir. Araşdırmanın nəticələri "Food Science & Nutrition" (FSN) jurnalında dərc olunub. Orada alimlər yarım milyondan çox insanın sağlamlığı və vərdişləri haqqında məlumat toplayan böyük tibbi layihə olan Britaniya Biobankının məlumatlarını təhlil ediblər. İştirakçıların hansı növ qəhvəyə üstünlük verdiyinə xüsusi diqqət yetirilib - adi, üyüdülmüş və ya kofeinsiz. Məlum olub ki, yalnız hazır qəhvə içənlərdə yaşa bağlı makulyar degenerasiya riski artıb.**

Bu, aydın görmədən məsul olan retinanın mərkəzi hissəsini (makula adlanır) zədələyən bir göz xəstəliyidir. Makula degenerasiyası tədricən inkişaf edə bilər və ağır hallarda korluğa səbəb olur.

Tədqiqatçıların fikrincə, hazır qəhvənin mənfi təsiri onun istehsalı ilə bağlıdır. İstilik müalicəsi zamanı onun tərkibində zərərli maddələr, o cümlədən görmə hüceyrələri də daxil olmaqla, sinir hüceyrələrinə zərər verə bilən potensial zəhərli birləşmə olan akrilamid əmələ gələ bilər.

Hazır qəhvənin tərkibində oksidləşmiş yağlar və içkini qurutmaq və bərpa etmək üçün istifadə olunan kimyəvi əlavələr də ola bilər. Ənənəvi şəkildə hazırlanan üyüdülmüş qəhvə bu birləşmələrin əhəmiyyətli dərəcədə azını ehtiva edir.

# Bədəndə səbəbi bilinməyən göyərmələr hansı xəstəliklərə işarədir?



**Bədəndəki səbəbi bilinməyən qançırlar (göyərmələr) qalxanabənzər vəz, qaraciyər çatışmazlığı və qan xərçəngi ilə bağlı problemlərə işarə edə bilər. Bunu amerikalı terapevt Sermed Mezer deyib. Mütəxəssis xəbərdarlıq edib ki, qan xərçəngində trombosit çatışmazlığı səbəbindən tez-tez göyərmə müşahidə olunur.**

Həkim əlavə edib ki, göyərmələrin əmələ gəlməsi dərinin və göz ağlarının saralması ilə müşayiət olunarsa, bu, qaraciyər problemlərinin əlaməti ola bilər:

"Qaraciyər zədələndikdə, o, qanın laxtalanması üçün lazım olan kifayət qədər zülal istehsal edə bilmir". Dəridə səbəbi məlum olmayan göyərmələrin əmələ gəlməsinin başqa bir patologiya qrupu qalxanabənzər vəzi ilə bağlı problemlərdir: "Bu, qalxanabənzər vəzin lazımi miqdarda hormon istehsal etmədiyi bir xəstəlikdir. Bu, əzələ zəifliyi, depressiya, şüurun bulanıqlığı, soyuğa qarşı həssaslıq kimi bir sıra simptomlara gətirib çıxarır".

## Bitkilər yerin dərinliklərində "böyük sirr" saxlayırlar



**Planetin müxtəlif regionlarında torpağın təhlili göstərir ki, bitkilərin kökləri 1 metrdən daha çox dərinliklərə gedib çatır. Alimlər bildirirlər ki, bitkilər karbonu daha dərində saxlaya bilir və bu, iqlim dəyişikliyinin təsirlərini azaldır. "Nature Communications" jurnalında dərc edilən araşdırmaya görə, elm adamları ilk dəfə olaraq bitkilərdə daha dərində gizlənən ikinci kökləri aşkar ediblər.**

Məlum olub ki, bitkilərin təxminən 20%-i ikinci, daha dərin kök sisteminə malikdir. Köklərin ikinci təbəqəsi adətən azot kimi qida maddələri ilə zəngin olan torpaq qatlarına çatır və bitkilərə bu dərin torpaq ehtiyatlarından istifadə etməyə imkan verir.

## Bunları bilmək lazımdır

* Paltara yapışmış saqqızı qoparmaq üçün həmin paltarı soyuducunun buzlu yerində 1 saat saxlamaq lazımdır. Əgər paltar buzlu yerə yerləşmirsə, onda saqqız yapışan yerə buz parçası qoyun.

* Gümüş əşyaları təmizləmək üçün naşatır spirtinə həmin əşyaları salmaq lazımdır, sonra soyuq su ilə yumaq və yun əski ilə qurulamaq lazımdır.

* Gümüş bəzək əşyalarını təmizləmək üçün isə onları bir parça sink və qaynar paltar sodası məhlulu tökülmüş suya salmaq lazımdır.

* Rütubət ləkəsi olan gümüş əşyaları diş məcunu ilə təmizləmək olar. Xanımların işinə yarayacaq məsləhətlər.

* Bankanın polietilen qapağını açmaq üçün bankanın üstünə qaynar su olan qab qoymaqla açmaq olar. Beləliklə qapaq isinəcək və asan açılacaq.

* Çaydanı ərpdən təmizləmək üçün: boş çaydanı isidib içinə bir stəkan suyu təzyiqlə tökmək lazımdır. 1-2 paket limon turşusu qatılmış suyu ərpli çaydanda qaynatmaq olar. 1 çay qaşığı sodanı suya qataraq, çaydanda 30 dəqiqə müddətində qaynatmaq lazımdır.

* Holland pendiri keçirdiyiniz sürtkəci təmizləmək üçün, sürtkəcdən yarım çiy kartof keçirin. Bundan sonra sürtkəc rahat təmizlənəcək.

* Kartofun bişərkən xırçıltılı və qırmızımtıl rəngdə olması üçün qızartmazdan əvvəl kartofu yaxşıca qurutmaq lazımdır. Bunun üçün dəsmaldan istifadə edə bilərsiniz. Daha sonra qaynar yağın içinə atmaq və qızarandan sonra duzlamaq lazımdır.

* Təzə kartofu təmizləmək üçün, qabyuyan süngərdən (bir tərəfi porolon, digər tərəfi kələ-kötür material olsun) istifadə edin.

* Kartofu uzun müddət saxlamaq üçün: kartofu saxlayacağınız yer təmiz və quru olmalıdır. Kartofu zirzəmidə saxlayacağınız təqdirdə ventilyasiya üçün pəncərə qoymaq lazımdır. Kartofu qış fəslində 2-5 dərəcə istilikdə və 85-95% nisbi rütubət şəraitində saxlamaq lazımdır.

* Ütünüzün altını duzla təmizləyin.

* Bıçaqdan soğan iyini aparmaq lazım olduqda, bıçağı bitki yağı ilə silin.

## Xoşbəxtlikdən buna görə ağlayırıq - şok araşdırma



**Bristol Universitetinin britaniyalı alimləri bizi sevincdən və digər güclü hisslərdən ağladan mexanizmləri aşkar ediblər. Məlum olub ki, göz yaşları beynə emosional yüklənmənin öhdəsindən gəlməyə kömək edir.**

Publika.az xəbər verir ki, barədə "The Conversation" məlumat yayıb.

Göz yaşlarının sevinc və ya kədərdən qaynaqlanmasından asılı olmayaraq, limbik sistem - beynin emosional mərkəzi - həddindən artıq hiss yükü ilə qarşılaşdıqda baş verir. Amigdala, hipotalamus və anterior singulat korteks sıx emosiyalara cavab olaraq gözyaşı istehsalını tətikləmək üçün birlikdə işləyir.

"Göz yaşları beynin "Dayan, mən bunu daha emal edə bilmərəm" demə üsuludur", - nevroloqlar izah ediblər.

Duyğular - istər sevinc, istərsə də kədər - zirvəyə çatdıqda, bədən fövqəladə bir "klapan" işə salır - ağlama. Bu zaman parasimpatik sinir sistemi aktivləşir, ürək döyüntüsünü yavaşladır və orqanizmi tarazlı vəziyyətə qaytarır.

Tədqiqatlar göstərir ki, "xoşbəxt göz yaşları" nadir hallarda sırf sevinclidir. Onlar tez-tez hisslər kokteylindən doğulurlar: qürur, nostalji, rahatlıq və hətta yüngül kədər. Məsələn, övladının məzun olmasını izləyən valideynlər eyni vaxtda həm sevinc, həm də vaxtın keçməsi üçün həsrət hiss edə bilərlər.

Yaddaşdan məsul olan hipokampus, keçmiş çətinliklər və ya itkilər haqqında xatirələri gündəmə gətirərək bu təsiri gücləndirir. Buna görə də toxunan anlar tez-tez boğazda bir şişə səbəb olur - beyin indiki sevinci keçmişin emosional yükü ilə əlaqələndirir.

Elm adamları qeyd ediblər ki, göz yaşlarını saxlaya bilməmək, ehtimal ki, bir ünsiyyət vasitəsi və sosial əlaqələri gücləndirmək üçün bir yol kimi inkişaf edib. Tədqiqatlar təsdiq edib ki, ağlayan insanlar, göz yaşlarının səbəblərindən asılı olmayaraq, başqalarından daha çox kömək alırlar.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114

SAYI: 1.500